

Doğma, canım-varlığım qədər sevdiyim
Azərbaycanım mənim qibləgahımdır

100 ilin qəzeti

ŞƏRQ QAPISI

Sayı: 1 (24.487)
10 yanvar 2026-cı il, şənbə

www.serqqapisi.az

Təsisçi: Naxçıvan Muxtar Respublikasının Ali Məclisi


# Lider müsahibəsi

## Qlobal dünya nizamına, beynəlxalq münasibətlər sisteminə Azərbaycan baxışı



Prezident İlham Əliyevin ənənəyə çevrilən yerli televiziya kanallarına budəfəki dərinməzmunlu, genişkonsepsiyalı müsahibəsində də yaşadığımız qlobal dövrün gün ötdükcə daha da tündləşən geosiyasi mənzərəsinə aydınlıq gətirildi, respublikamızın dünya düzəninin nizama salınması prosesindəki rolu müxtəlif aspektlərdən təhlil edildi. Azərbaycan-Amerika, Azərbaycan-Çin, Azərbaycan-Mərkəzi Asiya ölkələri, Azərbaycan-Türkiyə strateji, ticari, iqtisadi tərəfdaşlıqlarına dair vacib nüanslar diqqətə çəkildi, ölkəmizin çoxvektorlu, balanslı xarici və sosial rifaha xidmət edən daxili siyasətinin əsas məqsədləri, hədəfləri açıqlandı. Dövlət başçısı Qarabağda, Şərqi Zəngəzurda aparılan Böyük Qayıdış missiyasına geniş şərh verdi, işğaldan azad olunmuş ərazilərdə yaradılan yeni idarətmə strukturunun, innovativ layihələrin ölkəmizin digər yerlərində də uğurla tətbiq olunacağını diqqətə çatdırdı, Zəngəzur dəhlizinin, birinci növbədə, Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin əlaqəsi baxımından, eləcə də beynəlxalq dəhliz kimi əhəmiyyətli layihə olduğunu vurğuladı. Sitat: ***"Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar, təbii ki, Şərq-Qərb marşrutunu, Orta Dəhlizi tam işlək vəziyyətə gətirəcək. Sözsüz ki, Çin və Orta Asiya ölkələrindən gələn yüklərin də Zəngəzur dəhlizi boyunca hərəkət edəcəyini gözləyirik. Təbii ki, biz buna, ilk növbədə, Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, həm də beynəlxalq nəqliyyat dəhlizi kimi baxırıq".***

Səhifə ⇨ 2

## Tarixi rekord

### *10 min meqavata bərabər generasiya gücü*




Səhifə ⇨ 3

*Ali Məclisin 2025-ci il payız sessiyası dövründə 9 plenar, 11 komitə, 6 komissiya iclası keçirilib, ümumilikdə, 11 hüquqi akt qəbul olunub.*




## 2025-ci ili uğurla başa vuran "Şərq qapısı" yeni hədəflərə doğru




Səhifə ⇨ 6-7

## Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışı



Səhifə ⇨ 8

## Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır



Səhifə ⇨ 9

# Lider müsahibəsi

## Qlobal dünya nizamına, beynəlxalq münasibətlər sisteminə Azərbaycan baxışı



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin proqram xarakterli fikirlərindən, irəli sürdüyü tezislərdən də yola çıxaraq deyə bilərik ki, ötən ilin ən mühüm tarixi hadisələrindən, siyasi nailiyyətlərindən biri də məhz avqustun 8-də Vaşinqtonda əldə olunan razılaşmalardır. Azərbaycan diplomatiyasının son 5 ildəki ən böyük uğur zirvəsi hesab olunan görüş bir sıra aspektlərdən həm region üçün, həm də qlobal miqyasda əhəmiyyət daşıyır. Dövlət başçımız bu tarixi səfərlə, ilk növbədə, uzun illərin ABŞ-Azərbaycan siyasi buzunu tamamilə əritdi, soyuq müharibəyə son qoydu fikrini əminliklə deyə bilərik. Dünyanın bir nömrəli siyasi ofisi – Ağ Evdə dünyanın bir nömrəli ölkəsinin rəhbəri Donald Trampın məhz Prezident İlham Əliyevin şəxsən iştirakı ilə 907-ci düzəlişə son qoyması ABŞ-nin anti-Azərbaycan siyasətinin sonunu gətirməklə Co Bayden “demokratiyası”nın məkrli planını tarixin arxivinə yuvarlatdı. Bu mütərəqqi addım, eyni zamanda uzun illərdir, dünyada “mənəm mənəmlik” edən erməni lobbisinin, bu qara çətir altında daldalanan siyasi oyunbazların hiylələrinin fiyaskoya uğraması deməkdir. Və təbii ki, Azərbaycan-Amerika münasibətlərində yeni səhifənin açılması, strateji tərəfdaşlıq yolunun əsas, düzgün yön, istiqamət kimi tutulmasıdır. Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində də dediyi kimi: ***“Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər. Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Halbuki hələ Konqres bunu rəsmən aradan qaldırmalıdır. Amma xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır”.***

## Azərbaycan Zəngəzur dəhlizinə, ilk növbədə, Naxçıvanla əlaqə kimi baxır

Vaşinqton görüşünü Azərbaycanın Vətən müharibəsində hərb meydanında qazandığı tarixi zəfərinin siyasi masada da qələbə ilə tamamlanması, Azərbaycan-Ermənistan münasibətlərinin müsbət yöndə inkişafına təkan verən hüquqi möhürün vurulması kimi dəyərləndirmək olar. Digər bir deyişlə, 8 avqust razılaşması 8 noyabr hərbi-siyasi qalibiyyətinin məntiqi sonluğu, son 5 ilin diplomatiya zirvəsidir. Bu tarixi addım, eyni zamanda respublikamızın regionda yaratdığı yeni reallıqların dünyada qəbul olunması, qalib, qətiyyətli Liderin ***“Azərbaycandan-Azərbaycana maneəsiz keçid olmalıdır”***, ***“Zəngəzur dəhlizi mütləq açılmalıdır”*** bəyanatlarının praktik təntənəsidir. Bəli, Azərbaycan Prezidenti düşünülmüş, uzaqgörən siyasi yanaşması, məharətli diplomatiyası ilə 30 illik Qarabağ həsrətinə son qoymaqla yanaşı, Naxçıvan Muxtar Respublikasının 30 illik ağır, çətin blokadasını da aradan götürür. Ölkəmizin digər ərazisi ilə birləşməsi, beynəlxalq ticarətin mərkəzinə çevrilməsi Naxçıvan üçün geniş iqtisadi-inkişaf qapılarını açır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Zəngəzur dəhlizinə Azərbaycan dövləti, ilk növbədə, Naxçıvanla əlaqə yaranması nöqteyi-nəzərindən yanaşır, baxır. Eyni zamanda digər bir alternativ yol da icradadır ki, bu da İran ərazisindən keçməklə bağlantını yaradacaq Araz dəhlizidir. Bu bölgədən eyni vaxtda Qərb və Cənub istiqamətlərinə iki yolun açılması bir daha Naxçıvanın Azərbaycan üçün necə önəmli yerə və rola malik olduğunu göstərir. Bu eyni zamanda Azərbaycan dövlətinin çoxvektorlu, balanslı siyasətinin göstəricisi olmaqla yanaşı, bölgədə davamlı sülh və əməkdaşlıq mühitinin formalaşmasına hesablanıb. Prezident İlham Əliyevin xarici siyasət doktrinasının da əsas prioritetlərindən biri məhz, qonşu, bir sıra ölkələri ilə mehriban münasibətlərin bərqərar edilməsidir ki, bu xüsusda da həm Zəngəzur, həm də Araz dəhlizinin rolu olduqca mühümdür, əhəmiyyətlidir.

Ümumilikdə, götürdükdə isə Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzur kimi, Naxçıvan iqtisadi rayonu da dövlətimizin xüsusi diqqətindədir, bu 3 coğrafi ərazi yeni idarəetmə modelinin tətbiq edildiyi, müasir çağırışlara cavab verən layihələrin icrasına təşəbbüs göstərildiyi regionlardır. Bu baxımdan, Prezident İlham Əliyevin müəllifi olduğu “yaşıl gündəlik”də də Naxçıvanın yeri, payı çoxdur və yaxın illərdə bu istiqamətdə praktiki addımların atılacağı plandadır. Eləcə də işğaldan azad olunmuş ərazilərdə tətbiq olunan digər mütərəqqi metodların muxtar respublikada reallaşdırılması gündəmdədir. Naxçıvanda fəaliyyət göstərən sahibkarlar üçün yeni vergi, gömrük və sosial güzəştlər paketinin hazırlanması, həmin güzəştlərin 2026-cı ilin yanvarından tətbiqinin nəzərdə tutulması da bu sahədə atılan ilkin mütərəqqi addımdır. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində Naxçıvanla bağlı gələcək məqsəd və hədəfləri geniş şərh etdi, bu istiqamətdə qəti addımların atıldığını və atılacağını vurğuladı: ***“Naxçıvanın Baş Planı da hazırlanır, həm şəhərin, həm də bütün şəhərlərin. Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq işlərinə paralel olaraq Naxçıvan Muxtar Respublikasında da istər “yaşıl enerji” olsun, istər kənd***



***təsərrüfatı, istər suvarma, – indi orada böyük suvarma layihələri icra ediləcək, – istər turizm, bu bölgəni biz birləşdirəcəyik. Mən bunu bir daha demək istəyirəm, biz bunu onsuz da edəcəkdik, amma yaxşı ki, bunu sülh yolu ilə edirik”.***

Türkiyə ilə yeganə quru yolu əlaqəsi kimi, Naxçıvan Muxtar Respublikasının rolu özünü həm də Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin güclənməsində, iqtisadi, ticari münasibətlərin dərinləşməsində göstərir. Vətən müharibəsindən sonra yaranan yeni reallıqlar fonunda bu istiqamətdə də böyük təşəbbüslər irəli sürülüb, yeni layihələrin icrasına başlanılıb. Bu xüsusda, sözsüz ki, Qars-Naxçıvan dəmir yolunun tikintisi ilə bağlı Türkiyə tərəfinin qərar qəbul etməsi də olduqca mühüm amildir. Sözügedən irimiqyaslı layihənin icrasının regiona, münasibətlərin tənzimlənməsinə verə biləcək faydaları onilliklərə, yüzilliklərə hesablanıb. Və şübhəsiz ki, həm Qars-Naxçıvan dəmir yolunun inşası, həm də Zəngəzur dəhlizinin reallaşması yaxın gələcəkdə Naxçıvanın Türk dünyasının qapısı statusunu daha da gücləndirməklə həm də TDT-nin nüfuzuna yeni nüfuz qatacaq. Beləliklə, respublikamızın bu mühüm coğrafi regionu həm Azərbaycan-Çin, həm Azərbaycan-ABŞ, həm də Azərbaycan-Mərkəzi Asiya ölkələri, o cümlədən də Azərbaycan-Türk dünyası üçün vahid siyasi, iqtisadi maraq kəsişməsi yaratmaqla etibarlı beynəlxalq ticarət, əməkdaşlıq körpüsü rolunu oynamaqdadır. Və yaxın gələcəkdə bütün bu fikirlərin praktiki təzahürünün şahidi olacağıq.

Ümumilikdə, Prezident İlham Əliyevin qalib lider kimi artıq ənənəyə çevrilən ilin ilk müsahibəsində müasir dövrümüzdə dünyada baş verən qlobal proseslər müfəssəl şəkildə təhlil edildi, bu gedişatda Azərbaycan yeri, rolu və mövqeyi ortaya qoyuldu, gələcək hədəflər açıqlandı. Respublikamızın fəal siyasi, iqtisadi aktor kimi beynəlxalq münasibətlərin tənzimlənməsində, regionlararası, qitələrarası yeni əməkdaşlıq körpülərinin qurulmasında mühüm təşəbbüslərlə çıxış etdiyi bir daha əksini tapdı. Bu tarixi müsahibə dövlət başçısının insanların sosial rifahının yaxşılaşdırılmasının bir nömrəli məsələ kimi daim diqqətində olduğunu, dövlətçiliyin əsas atributlarından sayılan Azərbaycan dilinin qorunmasının, tarixi yaddaşımızın unudulmamasının vacibliyini ön plana çıxartdı. Və qalib lider tərəfindən gələcəkdə qarşıya qoyulan bütün hədəf və məqsədlərə çatmaq üçün respublikamızın kifayət qədər siyasi iradəyə, iqtisadi qüdrətə malik olduğu qəti şəkildə bəyan edildi. ***“İqtisadiyyatın həcmi, təxminən, 70-80 milyard ABŞ dolları olduqda hər bir faiz artımı, demək olar ki, 1 milyard dollar edir. Bu 1 milyard dolları cəmi bir il ərzində əldə etmək isə asan məsələ deyil. Bununla belə mən hesab edirəm ki, göstəricilər daha yaxşı ola bilər. Neft hasilatı sabitləşdikdən sonra ÜDM üzrə daha yüksək rəqəmləri görəcəyimizi düşünürəm. Amma yenə də mənim üçün bu, nə rəqabətdir, nə də yarış. Əsas odur ki, iqtisadiyyatımız bizə inkişaf etməyə, əhali üçün daha yaxşı yaşayış şəraiti yaratmağa, azad edilmiş əraziləri bərpa etməyə, müdafiə qabiliyyətinə investisiya qoymağa və ümumilikdə, iqtisadiyyatımızı daha da gücləndirməyə imkan versin”*** – sitatın sonu!

**Nail ƏSGƏROV**

# Tarixi rekord

## 10 min meqavata bərabər generasiya gücü



### *Azərbaycanın təkcə külək enerjisi potensialı 150 giqavatdan çoxdur*

Dünyamızda ildən-ilə artan enerji tələbatının ekoloji cəhətdən təmiz, “yaşıl yollar”la ödənilməsi dövlətlərin qarşısında dayanan ən önəmli və vacib məsələdir. Azərbaycan Respublikası da bir çox istiqamətlər üzrə yeni dövrün tələblərinə cavab verən ölkələr sırasındadır. Yeni ilin ilk günlərində dövlət başçısının yerli televiziya kanallarına müsahibəsində “yaşıl enerji” ilə bağlı səsləndirdiyi fikirlər bu sahədə hədəflənən, görülən və görüləcək işlərdən xəbər verdi: ***“Hazırda əsas vəzifə enerji mənbələrini qəbuletmə imkanlarını genişləndirməkdir. Çünki mövcud olan planlara görə, 2030-cu ilə qədər 6000 meqavat, 2032-ci ilə qədər isə 8000 meqavat günəş, külək və su enerjisi bizim sistemimizə daxil ediləcək. Yəni bunu qəbul etmək, həzm etmək üçün biz enerji sistemimizi gücləndirməliyik”.***

Ölkəmizin bütün ərazilərində olduğu kimi işğaldan azad edilən torpaqlarımızda da bu sahədə bir çox işlər görülüb və görülməkdədir. Belə ki, Vətən savaşında qazanılan zəfərdən sonrakı son beş il ərzində Qarabağda və Şərqi Zəngəzurda dövlət vəsaiti hesabına 40-a yaxın kiçik su elektrik stansiyası inşa edilib. Bu gün onların ümumi potensialı 300 meqavatdan çoxdur. Təkcə 2025-ci ilə nəzər saldıqda isə görürük ki, “8 Noyabr” Elektrik Stansiyasının, habelə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında su elektrik stansiyalarının istismara verilməsi nəticəsində enerji sisteminin qoyuluş gücü 15,6 faiz artaraq 9732,5 MVt-a çatdırılıb. Elektrik enerjisi istehsalında nüvə texnologiyalarının, o cümlədən Kiçik Modul Reaktorların (KMR) tətbiqi istiqamətində araşdırmalara başlanılıb və 2026-cı ilin ikinci yarısında yekunlaşdırılması, Araz çayı üzərində 100 MVt gücündə “Xudafərin” və 40 MVt gücündə “Qız Qalası” su elektrik stansiyalarının tikintisi üçün tenderin 2026-cı ilin yanvar ayında başa çatdırılması nəzərdə tutulur. Naxçıvan enerji sisteminin reabilitasiyası istiqamətində müvafiq işlər aparılır.

Dövlət başçısı müsahibəsində bu sahədə xarici investorların rolundan da danışıb “Masdar”, “ACWA Power”, bp kimi şirkətlərlə külək və günəş enerjisi layihələrinin, eləcə də Qara dəniz və Xəzər dənizinin dibi ilə nəzərdə tutulan kabel marşrutlarının Azərbaycanın həm mavi, həm də “yaşıl enerji” istehsalçısı və ixracatçısı kimi mövqeyini möhkəmləndirdiyini vurğuladı. Faydalı qazıntıların tam inkarının qeyri-real olduğunu, neft-qazla paralel “yaşıl enerji”yə keçidin məhz praqmatik kombinasiyaya əsaslanmalı olduğunu bildirərək Azərbaycanı bu keçidin regional “laboratoriyası” kimi təqdim etdi.

***“Bizim təkcə külək enerjisi potensialımız 150 giqavatdan çoxdur. Günəşli günlər də, Allaha şükür, çoxdur, həm Bakıda, həm bütün bölgələrimizdə. Xəzər dənizinin külək enerjisi potensialı kifayət qədər böyükdür. Ona görə bundan istifadə etməmək günah olardı. Biz bu imkanları dünya energetika aləminə təqdim edəndə onlardan böyük maraq gördük. Bu gün bizim əsas investorumuz Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətidir, hansı ki birinci günəş elektrik stansiyasını inşa edib, 230 meqavat gücündə. İkinci stansiya yaxın günlərdə istismara veriləcək. Burada da investor Səudiyyə Ərəbistanının “ACWA Power” şirkətidir. O da 240 meqavat gücündə olan stansiyadır. Üçüncü böyük stansiyanı bp şirkəti Cəbrayıl rayonunda inşa etməyə başlayıb, o da 240 meqavatdır. Bu, sadəcə olaraq, başlanğıcdır”.***

Yanvarın 8-də Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının Bakıda, “Gülüstan” sarayında rəsmi açılış mərasimində iştirak edən ölkə başçısı qeyd edib ki, ***“Bu gün ölkəmizin müxtəlif yerlərində bərpa olunan enerji növləri inkişaf edir. Növbəti böyük stansiyaların açılışı Biləsuvarda, Neftçalada, Naxçıvanda, işğaldan azad edilmiş ərazilərdə nəzərdə tutulur. Bu günə qədər Qaradağ rayonunda açılıb, bu gün Xızı, Abşeron rayonlarında. Yəni Azərbaycanın coğrafi vəziyyəti elədir ki, istənilən bölgədə bərpa olunan enerji növlərini istehsal etmək mümkündür. Mən hələ Xəzər dənizinin potensialını demirəm. Xəzər dənizinin Azərbaycan sektorundakı külək potensialı beynəlxalq qiymətləndirməyə görə, 157 giqavat səviyyəsindədir”.***

**“Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk.”**

### *Naxçıvanın enerji təminatı məsələləri ön plandadır*

Muxtar respublikada enerji təhlükəsizliyinin təmin olunması Ulu Öndərin uzaqgörən siyasətinin bəhrəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvanın enerji təminatı məsələləri ön plandadır. Biz hamımız yaxşı xatırlayırıq ki, vaxtilə Naxçıvanı elektrik enerjisi ilə təmin etmək üçün çox böyük problemlər mövcud idi. Ulu Öndərin rəhbərliyi ilə Naxçıvanın enerji təhlükəsizliyi məsələlərinin həllinə start verildi və bu gün biz bu siyasəti uğurla davam etdiririk”.***

Prezident İlham Əliyev tərəfindən prioritet vəzifə olaraq irəli sürülən bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi istiqamətində görülən işlər 2030-cu ilədək elektrik enerjisinin qoyuluş gücündə payının 30 faizə çatdırılmasını hədəfləyir. Dövlət başçısının Qarabağ və Şərqi Zəngəzurla bərabər, Naxçıvanı da “yaşıl enerji zonası” elan etməsi və muxtar respublikanın yerləşdiyi əlverişli coğrafi mövqe və iqlim şəraiti burada ekoloji cəhətdən təmiz enerji istehsalına imkan verir. Qeyd etmək lazımdır ki, son illərdə muxtar respublikada ekoloji cəhətdən təmiz enerji istehsalı məqsədilə bir sıra addımlar atılıb. Xüsusilə yeni günəş və külək elektrik stansiyalarının tikilib istifadəyə verilməsi Naxçıvanda istehsal edilən ümumi enerjidə bərpa olunan enerjinin payını artırıb.

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda 11 prioritet istiqamətin biri elektrik enerjisi istehsalının və ixracının artırılması ilə bağlıdır ki, burada da əsas məqsəd “yaşıl enerji” istehsalıdır. Təkcə Dövlət Proqramının qəbul olunduğu 2023-cü ildə muxtar respublikanın elektrik stansiyalarında 474 milyon 569 min 561 kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bunun da 19,89 faizi su elektrik və 12,75 faizi günəş elektrik stansiyalarının payına düşür. Ümumilikdə, alternativ və bərpa olunan enerji mənbələrində istehsal edilən elektrik enerjisi ümumi enerji istehsalında 32,64 faiz təşkil edib. Bununla da muxtar respublikada günəş elektrik stansiyalarının ümumi gücü 39 meqavata çatdırılıb. Bu sırada isə günəş enerjisindən istifadə imkanları daha çox ön plana çıxır. Hesablamalara görə, Naxçıvan ərazisində günəşli saatların ortaillik miqdarı 2600-2800 saat, hər kvadratmetrə düşən günəş enerjisinin intensivliyi isə 0,8-1,2 kilovat-saat təşkil edir. Bu isə o deməkdir ki, bütün fəsillərdə günəş enerjisindən istifadə imkanı mövcuddur.

2024-cü il sentyabrın 28-29-da Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə 3-cü Enerji Forumu və “Naxçıvan – yaşıl enerji zonası” beynəlxalq konfransında, eləcə də Bakı Enerji Forumunda Naxçıvanın enerji potensialı ilə bağlı xarici şirkətlərlə anlaşma memorandumları imzalanıb. Naxçıvanda “Masdar” şirkəti ilə ilkin mərhələdə gücü 150 meqavat olan günəş elektrik stansiyasının tikilməsi də nəzərdə tutulub. “Czech Engineering” şirkəti isə Sədərək rayonunun Türkiyə ilə sərhədində günəş elektrik stansiyalarının inşası, enerji ötürücülərinin tikilməsi və istifadəsi üzrə əməkdaşlığa maraqlıdır. Eyni zamanda Almaniyanın “Notus” şirkəti Naxçıvanda “yaşıl enerji” layihələrini reallaşdırmaq niyyətindədir. İlkin mərhələdə pilot layihə olaraq 70 meqavatlıq günəş elektrik stansiyasının Naxçıvanın şimal-qərbində – Türkiyə ilə sərhəd xəttinə yaxın ərazidə tikilməsi nəzərdən keçirilir.

Qeyd edək ki, 2025-ci il ərzində “Azərenerji” ASC “Naxçıvan Enerji” MMC-nin istismar sahəsində olan elektrik stansiyalarının texniki-iqtisadi göstəricilərinə görə Naxçıvanda istehsal olunan ümumi elektrik enerjisinin 36,6 faizi alternativ və bərpa olunan enerji mənbələrinin payına düşüb.

Naxçıvan Muxtar Respublikasında “yaşıl enerji” potensialının gücləndirilməsi istiqamətində dövlətimizin qayğısı ilə görülən işlər və qədim diyarın əlverişli iqlim şəraitini nəzərə alaraq, demək olar ki, yeni layihələr tezliklə Naxçıvanı həm “yaşıl enerji”, həm də türk dövlətlərini birləşdirən dəhlizə çevirəcək.



**“Şərq qapısı”**

# Qafqazın sülh carçısı



Tarix öz səhifələrinə nəyi necə varsa, elə də qeyd edir. Heç nəyi dəyişmək və ya silib yenidən yazmaq mümkün olmayacağı şəkildə. Tarix həm də yaratdığı nadir şəxsiyyətləri öz səhifəsində əbədiləşdirir. Tanrı isə belə seçilmiş insanları hər xalqın qismətinə yazmır. Ona bəxş edilən dahiləri zamanında qiymətləndirən, onlara dəyər verən millət isə Yaradanın sevimlisinə çevrilib əlçatmaz olur, daim yüksəlir və yaşayır. Bu tarixi həqiqətdir. Hər zaman sübut edilmiş həqiqət. Ulu Tanrının Türk dünyasına bəxş etdiyi belə nadir şəxsiyyətlərdən biri olan Ulu Öndər Heydər Əliyev bizi, bu xalqı bütün bəlalardan xilas edib ayağa qaldırdı, yarımçıq qalan işlərini tamamlamağı əmin əllərə etibar etdi. Ona özü qədər inandı. Bəli, Tanrının Ona bəxş etdiyi bütün xüsusiyyətləri varisinə miras qoymuşdu dahi rəhbər. Bunu tarix də sübut etdi. Heydər Əliyevin əsasını qoyduğu və axıra çatdıra bilmədiyi bütün işləri yeni tarix yazan Prezidentimiz İlham Əliyev tamamladı.

Heydər Əliyevin qoyduğu təməllər, xüsusən də neft strategiyası, dövlətçilik ideologiyası, hüquqi baza və təhsil islahatları cənab İlham Əliyev tərəfindən daha da inkişaf etdirilərək "Əsrin müqaviləsi" kimi böyük layihələrin tamamlanması, ölkənin müstəqilliyinin möhkəmləndirilməsi və ərazi bütövlüyünün bərpası kimi tarixi nailiyyətlərlə davam etdirildi. Ulu Öndərimiz Heydər Əliyevin arzu və vəsiyyətini əməllərində gerçəkləşdirərək Prezident İlham Əliyev Ümummilli Liderimizin Azərbaycan üçün xilaskarlıq və rifah yolunu qətiyyətlə davam etdirib, doğma Azərbaycanımızı qalib ölkəyə çevirdi. İndi artıq əminliklə demək olar ki, münaqişəyə "dəmir yumruq"la son nöqtəni qoyan, iki əsrlik problemi həll etmiş Prezident İlham Əliyev təkcə Azərbaycanı gücləndirib dünyada tanıtmadı, Cənubi Qafqaz xalqları arasında ədavətə son qoyub, sülhü bərqərar edən, əvəzolunmaz böyük tarixi şəxsiyyət kimi adını tarixin yaddaşına yazdırdı. Bütün dünya şahid oldu ki, Azərbaycan və onun qalib rəhbəri sülh tərəfdarıdır və bunun üçün əlindən gələn hər şeyi edir. Vasitəçilər, moderatorlar, sülh danışıqlarının platforması dəyişsə də, bizim sülh niyyətimiz dəyişməz qalır.

Bu gün dahi rəhbərin yolunu bütün sahələrdə uğurla davam etdirən ölkə başçısı Ulu Öndərin ***"Azərbaycanın xarici siyasəti sülhsevər siyasətdir, dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əlaqələr saxlamaq, sülhü, əmin-amanlığı qorumaq, qonşularla mehribanlıq, əmin-amanlıq, sülh şəraitində yaşamaq, bütün başqa ölkələrlə də mehriban əlaqələr yaratmaq və bütün sahələrdə geniş əməkdaşlıq etmək siyasətidir"*** nəsihətini də layiqincə yerinə yetirir. Düşməni məğlubiyyətə düçar etməyimizə baxmayaraq, biz onları yenə də sülhə dəvət edir və Qafqazda çağırılmamış qonaqlar tərəfindən yaradılan münaqişənin həllinə can atırıq. Tarixə nəzər salanda görürük ki, hələ Azərbaycan Xalq Cümhuriyyətinin yeni yarandığı illərdə müstəqil dövlət kimi ilk dəfə sülh müqaviləsi 23 noyabr 1919-cu ildə imzalanıb. Bu Azərbaycan-Ermənistan sazişi olub ki, Tiflisdə imzalanmış bu müqavilə Zəngəzurda gedən döyüşlərə son qoymaq məqsədi güdürdü, lakin uğursuz oldu. Həmin illərdən fərqli olaraq bu gün Azərbaycan dövləti qalib ölkə kimi sülhə cəhd edir və sülhün əbədi olacağına ümid bəsləyir.

Çünki Vətən savaşının qələbə ilə bitməsindən, üçtərəfli bəyanatın imzalanmasından sonra ekspertlər Cənubi Qafqazda yeni eranın başlanması üçün əsaslı bir zəmin yaranacağını bildirirlər. Regionda uzun zaman qapalı qalmış iqtisadi və nəqliyyat kommunikasiyalarının açılmasını şərtləndirən yeni bəyanat Cənubi Qafqazda bu zamanadək heç vaxt mümkün görünməyən sülh və əməkdaşlıq mühitinin artıq reallaşdırılmasına doğru atılmış əhəmiyyətli bir addım oldu. Daim humanist və sülhsevər bir dövlət olan Azərbaycanın sülhpərvər mövqeyi, dünya dövlətləri ilə qurduğu yüksəksəviyyəli diplomatik, etibarlı əlaqələri regionun stabil inkişafı və təhlükəsizliyinin təminatında ölkəmizin üzərinə düşən rolu uğurla yerinə yetirdiyini sübut edən amillərdən biridir. Dünya dövlətləri ilə yaratdığı münasibətlər xarici diplomatiyadakı uğurun göstəricisi olduğu kimi, Azərbaycan ərazisində yaşayan müxtəlif millətlərin nümayəndələrinin bir bayraq altında birləşməsi Vətən müharibəsində talış, ləzgi, avarların, hətta burada yaşayan rusların da döyüşüb şəhidlik məqamına yüksəlməsi daxili sabitliyin və birliyin nümunəsi oldu.

Prezident İlham Əliyev sülh müqaviləsinin də tezliklə imzalanacağına əminliyini bildirərək vurğulayır: ***"Bununla biz müharibə, düşmənçilik səhifəsini qapadacağıq"***.

Sülhə doğru atılan addımların hər biri göstərir ki, bu xalq və onun rəhbəri hər zaman sülhsevər olub və bu belə davam edəcək. Dövlət başçısının bu istiqamətdə gördüyü bütün işlər və qəbul etdiyi qərarlar təkcə ölkə daxilində yox, bütün dünyada yaşayan xalqlar tərəfindən rəğbətlə qarşılanır və o sülhsevər lider kimi şöhrət qazanır.

Tarix bir çox dövlətlər və xalqlar arasında müharibələrə şahidlik edib, dünyanı lərzəyə gətirən çox hökmdarlar gəlib keçib bu dünyadan. Amma bu bir tarixi həqiqətdir ki, torpaq onu qanla doyuran, insanları amansızlıqla qətlə yetirən hökmdarları yox, dünyaya sülh və ədalət gətirən liderləri öz səhifəsinə qürurla həkk edib. Bu xalq da həmin xoşbəxt xalqlardandır ki, onun Müzəffər Sərkərdəsinin adı tarix səhifələrində Qafqazın sülh carçısı kimi əbədi yaşayacaq.

**"Şərq qapısı"**

## Biz hər zaman həqiqətə sadiq olmuşuq

Yanvarın 5-də Prezident cənab İlham Əliyevin yerli televiziya kanallarına artıq ənənəvi olaraq səciyyələndirilə biləcək müsahibəsi bir çox baxımdan həm ötən il ərzində Azərbaycanın dünya səviyyəsində qazandığı uğurların, əldə etdiyi inkişafın, beynəlxalq mühitdə çatdığı diplomatik zirvənin yenidən nəzərdən keçirilib xatırladılması, həm də ölkənin gələcək inkişaf perspektivlərinin, hədəflərinin ictimaiyyətə bəyan edilməsi baxımından olduqca əhəmiyyətli və maraqlı nüanslarla zəngin oldu. Əlbəttə ki, ötən ilin ən böyük diplomatik qələbəsi Ermənistanla sülh müqaviləsini paraflanması, artıq sülh şəraitində inkişafa nail olunması və bu istiqamətdə əldə edilən digər uğurlar müsahibənin əsas mövzusu və diqqətçəkən tərəflərindən oldu.

Hər birimizə bəllidir ki, 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən də son qoyuldu. İndi isə xalq olaraq sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşayıb. Ötən ilin avqustunda isə bu müharibənin, belə demək mümkündürsə, soyuq mərhələsinə də son qoyuldu. Yəni Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq qələbəyə siyasi müstəvidə də möhür vurdu. Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq.

Təbii ki, uzun illər arzusunda olduğumuz Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılması da məhz həmin gün – 8 avqust tarixdə reallaşdı. Beləliklə, Ermənistanla normallaşma prosesi çərçivəsində lazım olan bütün məsələlər cənab Prezidentin istədiyi kimi, onun diplomatik gücünün təzahürü ilə öz həllini tapdı.

Məlum olduğu kimi cənab İlham Əliyevin gərgin əməyinin nəticəsi olaraq Azərbaycan beynəlxalq müstəvidə etibarlı tərəfdaş imicini daha da möhkəmləndirib. Bunu ötən ilin beynəlxalq tədbirlərində iştirak, ölkə başçısının xarici ölkələrə səfərləri kontekstində daha aydın görmək mümkündür. Məhz bu istiqamətdən yanaşaraq cənab Prezident öz müsahibəsində bu mövzuya da xüsusi yer ayırdı.

Çinlə olan strateji tərəfdaşlığımız, ölkə başçısının bu ölkəyə dövlət səfəri zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamənin imzalanması kifayət qədər böyük uğurdur. Çin dünyada aparıcı ölkələrdən biridir və qarşılıqlı əlaqələrin inkişaf etdirildiyi bu siyasi platforma dövlət başçısının uğurlu diplomatiyasının təzahürüdür.

Digər tərəfdən, Azərbaycan D-8 təşkilatına üzv oldu. 30 ilə yaxındır ki, yaradılan və bu günə qədər yeni üzv qəbul etməyən təşkilata yeganə yeni üzv Azərbaycan oldu. Müsəlman dünyasının ümumi əhalisi bir milyarddan, ümumi iqtisadiyyatı dörd trilyondan çox olan ən böyük ölkələrini birləşdirən bu təşkilatın Azərbaycanı seçməsi böyük uğur sayılmalıdır.

Eyni zamanda Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsi də ötən ilin ən böyük uğurlarından biri olmaqla ölkəmizin etibarlı strateji tərəfdaş imicinin və qalib liderin praqmatik yanaşmalarının uğurlu təzahürüdür. Azərbaycan Cənubi Qafqazda yerləşsə də, Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda kifayət qədər sıx əlaqələr qurduğundan ölkəmizin tamhüquqlu üzv seçilməsi qərara alınıb. Bu amilin özü də böyük siyasi və diplomatik uğurdur.

Prezident cənab İlham Əliyevin öz müsahibəsində də qeyd etdiyi kimi: ***"Bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır"***.

Beləliklə, Çin və Orta Asiya ölkələrindən gələn yüklər də Zəngəzur dəhlizi boyunca hərəkət edəcək. Bu amil, birinci növbədə, Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, eyni zamanda beynəlxalq nəqliyyat dəhlizi kimi vacibdir. Layihə tam başa çatandan sonra həm Şərq-Qərb, həm Şərq-Cənub, həm də Şimal-Cənub yolunun bir qolu olacaq. Bu eyni zamanda Orta Dəhlizin də ikinci yolu olacaq. Yol Naxçıvandan iki istiqamət üzrə davam edəcək. Bir istiqamət Türkiyə-Avropa, bir istiqamət isə İran, Fars körfəzi və Yaxın Şərq. Bunun əsas istiqamətverici tərəfi isə, əlbəttə ki, Azərbaycan və onun qalib lideridir.

Müsahibədə Azərbaycanın təşəbbüsü ilə Ağbənd qəsəbəsində Araz çayı üzərində inşa edilən körpü haqqında da danışan cənab İlham Əliyev bildirdi: ***"Yəni bizim o bölgədən Qərb istiqamətinə və Cənub istiqamətinə, əslində, iki yolumuz olacaq. Biri Zəngəzur dəhlizi – Ermənistan üzərindən, biri isə Araz dəhlizi – İran üzərindən. Bunun da təşəbbüskarı biz olmuşuq. Körpünü biz öz vəsaitimizlə inşa edirik"***. Göründüyü kimi, artıq Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq, biri Ermənistan üzərindən, biri isə İran üzərindən. Cənab Prezident uzaqgörən siyasi səriştəsi ilə faktiki olaraq Naxçıvanı, Şərqi Zəngəzuru və Qarabağı bir bölgə kimi birləşdirir.

Bununla da Ermənistan indiki dalan vəziyyətindən çıxa biləcək, Azərbaycanla Ermənistan arasında yollar açılacaq, Türkiyə ilə Ermənistan arasında yollar açılacaq, Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək.

Cənab Prezidentin müsahibəsində toxunduğu əsas məqamlardan biri də Azərbaycanın regional süni zəka qovşağına, İT mərkəzinə çevrilmək hədəfidir. Kibertəhlükəsizlik mərkəzinin yaradılması, mütəxəssislərin təlimi ilə bağlı planlar və artıq icra olunmuş layihələr Azərbaycanın süni zəka və İT üçün bir haba çevrilməsi strategiyasının uğurla reallaşmasının göstəricisidir.

Təəssüf ki, beynəlxalq hüququn norma və prinsipləri faktiki olaraq işləmədiyi bir dövrdə Azərbaycan beynəlxalq hüququn işləməməsinin ilk qurbanlarından biri olmuşdur. Amma buna baxmayaraq, İkinci Qarabağ müharibəsindən keçən beş il müddətində bütün dünya, beynəlxalq ictimaiyyət, o cümlədən aparıcı ölkələr və nüfuzlu beynəlxalq təşkilatların yeni reallıqları qəbul etdiyini aydın şəkildə görürük. Artıq sülh dövrüdür, quruculuq dövrüdür. Bir neçə ay əvvələdək bunu, bəlkə də, axıra qədər dərk etməmişik: Sülh şəraitində yaşamaq nə deməkdir? Bu reallıqları isə Prezident cənab İlham Əliyev yaratdı.

Cənab Prezidentin də müsahibəsində dediyi kimi: ***"Beynəlxalq hüquq pozulanda güclü olan haqlıdır. Bu bizim seçimimiz deyil. Biz hər zaman həqiqətə sadiq olmuşuq, həmçinin hər zaman ədalətə sadiq olmuşuq. Biz heç vaxt ədalətə uyğun olmayan heç bir şey etməmişik. Gördüyümüz bütün işlər tarixi, hüquqi və insani ədalətə əsaslanıb"***.

**Məmməd BABAYEV**

# Naxçıvanda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə möhtəşəm atəşfəşanlıq olub





31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi Naxçıvan şəhərində böyük coşqu ilə qeyd edilib. Minlərlə sakin və qədim diyarın qonaqları şəhərin baş meydanına toplaşaraq Yeni ili birlikdə qarşılayıblar.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov və digər rəsmi şəxslər şəhər meydanına gələrək Yeni il şənliyini izləyiblər.

Prezident İlham Əliyevin 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına müraciəti meydanda quraşdırılan monitor vasitəsilə yayımlanıb.

Yeni ilin gəlişi münasibətilə Naxçıvan şəhərində möhtəşəm atəşfəşanlıq təşkil olunub. Qədim diyarın sakinləri 2026-cı ili xoş ovqat və böyük təntənə ilə qarşılayıblar.





# İtaliya mediası Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsindən bəhs edən məqalə yayımlayıb


Le prime parole del Nuovo Anno nell'incontro con i giornalisti del Presidente Ilham Aliyev (Sara Azimova)

Giornalista Sara Azimova:
Prime parole, primo incontro con i giornalisti

L'incontro del Presidente della Repubblica dell'Azerbaigian, **Ilham Aliyev**, con i rappresentanti dei media locali nel primo giorno lavorativo dell'anno e l'intervista rilasciata ai media rivestono grande importanza sia nella vita socio-politica del paese sia nel settore dei media e della

ULTIMI ARTICOLI

Le prime parole del Nuovo Anno nell'incontro con i giornalisti del Presidente Ilham Aliyev (Sara Azimova)

Il Vietnam registra un forte surplus commerciale

L'India include la medicina tradizionale nell'accordo di libero scambio con l'Oman

Reazione della Cina all'attacco USA in Venezuela

La tecnologia è fattore cruciale nelle relazioni tra Cina e Stati Uniti

META

Accedi

Feed dei contenuti

İtaliya mediasında "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Sara Əzimovanın Prezident İlham Əliyevin bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsinə həsr olunmuş "İlk söz, ilk görüş – jurnalistlərlə" sərlövhəli məqaləsi dərc edilib.

Məqalə "Eurasiaticanews" portalının rəhbəri, jurnalist Carlo Marino tərəfindən həmin portala yerləşdirilib.

Məqalədə dövlət-media münasibətləri geniş şərh olunur, bu baxımdan ilin ilk iş günündə Prezident İlham Əliyevin jurnalistlərlə ilk görüşü və söylədiyi ilk sözlərin cəmiyyətə verilən mühüm mesaj olduğu vurğulanır. Görüş artıq Azərbaycan mediası üçün formalaşmış müsbət ənənənin davamı olmaqla yanaşı, dövlət başçısının cəmiyyətlə açıq, şəffaf və birbaşa ünsiyyətinin bariz nümunəsi kimi dəyərləndirilir.

Prezident İlham Əliyevin çıxış və müsahibələrində Azərbaycanın gələcəyi ilə bağlı məqsədyönlü strategiya, aydın baxış və dəqiq yol xəritəsi öz əksini tapdığını qeyd edən müəllif dünyada cərəyan edən mürəkkəb proseslərin obyektiv təhlili, risklərin və imkanların düzgün qiymətləndirilməsi, təcrübə və analitik əsaslarla verilən proqnozlar dövlət başçısının siyasi uzaqgörənliyini bir daha təsdiqlədiyini diqqətə çatdırır.

Yazıda qeyd edilir ki, Prezidentin yerli mediaya verdiyi müsahibələr hər il ölkənin daxili və xarici siyasətinin yekun mənzərəsini ortaya qoyur, baş vermiş mühüm hadisələr, regiondakı və qlobal miqyaslı proseslər barədə geniş məlumat verir. Dövlət başçısı müsahibələrində bütün mövzuları ən xırda detallara qədər əhatə etməklə həm dərin məlumatlılığını, həm də yüksək siyasi erudisiyasını nümayiş etdirir. Bu yanaşma ölkənin strateji məqsədlərinə aydınlıq gətirməklə yanaşı, cəmiyyətin dövlət siyasətinə inamını da gücləndirir.

# Tanınmış jurnalist Mirşahin Ağayev təəssüratlarını "Şərq qapısı" qəzeti ilə bölüşüb



Yanvarın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib. Tanınmış jurnalist Mirşahin Ağayev də həmin müsahibədə iştirak edib və suallar ünvanlayıb.

Müsahibədən sonra Mirşahin Ağayev qəzetimizlə təəssüratlarını paylaşaraq bildirib ki, Prezident İlham Əliyev olduqca maraqlı, son dərəcə məlumatlı, müdrik və səmimi liderdir. O vurğulayıb ki, müsahibə zamanı Azərbaycan mediasının təmsilçiləri yalnız öz suallarına cavab almayıb, həm də liderlik, strateji düşüncə və geosiyasi baxışların canlı nümunəsini görüb. Mirşahin Ağayev əlavə edib ki, Prezidentin cavabları dəqiq, sərrast və nümunəvi olub, müsahibə jurnalistlər üçün unikal təcrübə təqdim edib.

Müsahibə zamanı Prezident İlham Əliyev ölkəmizin sosial-iqtisadi inkişafı, beynəlxalq münasibətlər, regionun strateji əhəmiyyəti və Azərbaycanın gələcək perspektivləri barədə önəmli açıqlamalar verib.

# Carlo Marino "Şərq qapısı" qəzetinə eksklüziv müsahibə verib



"Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycan mediası ilə keçirdiyi birbaşa mətbuat konfransları şəffaflığa və ictimaiyyətlə birbaşa ünsiyyətə sadiqliyin göstəricisidir. Bu cür görüşlər milli siyasətin müzakirəsi, ictimai rəyin narahatlıqlarının gündəmə gətirilməsi və hökumətin ölkənin inkişafı ilə bağlı baxışlarının paylaşılması üçün mühüm platforma yaradır. Birbaşa kommunikasiya idarəetmədə müsbət təcrübə hesab olunur, cəmiyyətin məlumatlılığını artırır və rəhbərliklə xalq arasında əlaqələri möhkəmləndirir. Eyni zamanda bu, Azərbaycanda medianın azadlığı və əlçatanlığı sahəsində əldə olunan irəliləyişləri də nümayiş etdirir".

Bu sözləri eksklüziv müsahibəsində İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti Carlo Marino deyib.

O qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti ilə media arasında keçirilən görüşlər dövlət şəffaflığına, açıq idarəetməyə və proaktiv ictimai münasibətlərə sadiqliyin bariz nümunəsidir. İlk növbədə, bu qarşılıqlı əlaqələr hökumətin media vasitəsilə ictimaiyyətlə birbaşa ünsiyyət qurmaq niyyətini əks etdirir və vətəndaşların milli siyasətlər, inkişaf strategiyaları və dövlət prioritetləri barədə məlumatlandırılmasını təmin edir. Bu yanaşma hesabatlılığı gücləndirir və ictimaiyyətin dövlət institutlarına olan etimadını artırır.

"İctimai münasibətlər baxımından isə belə görüşlər dövlətin baxışını və nailiyyətlərini aydın şəkildə ifadə etməyə, eyni zamanda ictimaiyyətin sual və narahatlıqlarına cavab verməyə imkan yaradır", – deyən İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti vurğulayıb ki, media burada dövlətlə xalq arasında körpü rolunu oynayaraq məlumatlı və fəal cəmiyyətin formalaşmasına töhfə verir. Bundan əlavə, Azərbaycanın davam edən inkişafı və regional rolu kontekstində bu görüşlər həm daxili, həm də beynəlxalq səviyyədə vahid milli narrativin formalaşmasına, sosial-iqtisadi inkişaf, infrastruktur quruculuğu və münaqişədən sonrakı dövrdə sülh quruculuğu kimi sahələrdə ölkənin irəliləyişlərinin önə çıxarılmasına xidmət edir. Ümumilikdə, bu cür ünsiyyətlər müasir, çevik və şəffaf idarəetmə modelindən xəbər verir və dövlətlə ictimaiyyət arasında kommunikasiya sahəsində müasir standartlara uyğun gəlir.

"Milli liderlərlə media arasında açıq dialoqlar, adətən, idarəetmədə müsbət təcrübə kimi qiymətləndirilir, çünki bu, şəffaflığı, hesabatlılığı və ictimai etimadı gücləndirə bilər. Azərbaycanda belə görüşlər jurnalistlərə hökumətin mövqeləri və siyasətləri barədə birbaşa məlumat əldə etmək imkanı yaradır, bu da daha dolğun və dəqiq informasiya yayımını təşviq edir. İctimaiyyət üçün isə bu, dövlət qərarları və milli prioritetlər barədə daha aydın anlayışın formalaşmasına səbəb ola bilər.

Vacibdir ki, bu cür dialoqlar mətbuat azadlığına hörmət olunan, konstruktiv müzakirəni təşviq edən və ölkənin hüquqi və mədəni normalarına uyğun bir mühitdə keçirilsin", – deyə Carlo Marino əlavə edib.

# 2025-ci ili uğurla başa vuran "Şərq qapısı" yeni hədəflərə doğru




**Ulu Öndər Heydər ƏLİYEV:**

*"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm. Hələ gənc ikən, burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm... O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb."*

## Müasir iş şəraiti, əlverişli yaradıcılıq mühiti

Səhifələrində Naxçıvanın, sözün əsl mənasında, müfəssəl poetik rəsmini yaradan, analitik şərhini verən, ictimai-siyasi mənzərəsini tarixiləşdirən 104 yaşlı qocaman mətbu orqanın – "Şərq qapısı" qəzetinin birillik fəaliyyətinə nəzər salmağa çalışacağıq bu yazıda. Başqa sözlə, "Yola saldığımız 2025-ci il qəzetin həyatında, əməkdaşların yaradıcılıq dünyasında nələrlə yadda qaldı?" sualına qısaca aydınlıq gətirəcəyik. Qəzet əməkdaşları üçün ən böyük uğurlardan biri, bəlkə də, elə birincisi, sözsüz ki, bacarıqlarını uğurla praktikaya çevirmək məqsədilə əlverişli iş mühitinin yaradılmasıdır. Bu baxımdan, ötən ilin ən böyük nailiyyətlərindən biri redaksiyanın maddi-texniki bazasının gücləndirilməsi, müasir jurnalistika fəaliyyətinin tələblərinə uyğun infrastrukturun qurulmasıdır. Belə ki, 2025-ci ildə qəzetin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində görülən işlərə uyğun olaraq mətbu orqan iki tenderin qalibi olub. Buna uyğun olaraq qəzet əməkdaşlarının iş şəraitinin yaxşılaşdırılması, eyni zamanda ehtiyac olan avadanlıqların alınması təmin edilib. Redaksiyanın maddi-texniki bazası gücləndirilib, ən son texnologiyaya əsaslanan avadanlıqlarla – kompüterlər, printerlər, yaddaş qurğuları və fotoaparatlarla təchiz edilib, informasiya mərkəzi yaradılıb, jurnalistlərin daha səmərəli fəaliyyəti təmin edilib, arxiv işi təkmilləşdirilib. Martın 13-də yeni avadanlıqların və informasiya mərkəzinin təqdimatı olub.



## Ötən ilin ən yaddaqalan media hadisələrindən biri – "MEDİAFEST-2025"

Prezident İlham Əliyevin 2025-ci il 25 aprel tarixli "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı bütün KİV kimi, 104 yaşını tamamlayan, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi mətbuat orqanı "Şərq qapısı" üçün də böyük dövlət qayğısı, diqqəti kimi dəyərləndirilir. Mayın 30-da Sərəncamın icrasına uyğun Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin təşəbbüsü, Medianın İnkişafı Agentliyi, Mətbuat Şurası və "Şərq qapısı" qəzetinin birgə təşkilatçılığı ilə Naxçıvanda "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025" keçirilib. Tədbirdə qəzetin hazırladığı milli mətbuatımızın tarixindən və müasir inkişafından bəhs edən videoçarx təqdim olunub.

Naxçıvanda keçirilən və ölkənin çox sayda aparıcı KİV, tanınmış media nümayəndələrinin iştirak etdiyi "Qlobal İnformasiya Mühiti və Media Trendləri" konfransı – "MEDİAFEST-2025" yaddaşlardan uzun müddət getməyəcək dərin təəssürat yaradıb. Konfransda Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr Departamentinin rəhbəri Fahrettin Altun, Anadolu Agentliyinin baş direktoru Serdar Karagöz, Özbəkistan Gənc Jurnalistlər Birliyinin sədri Şöhrət Arif, Avropa Xəbər Agentliyinin İtaliya nümayəndəsi Carlo Marino və Qazaxıstan televiziyasının Xəbərlər Departamentinin direktoru Beynequl Abauovanın Azərbaycan



mətbuatının 150 illik yubileyi münasibətilə təbrik videoları təqdim olunub. Eyni zamanda "Dezinformasiya və fake news-larla mübarizə" mövzusunda panel müzakirələr aparılıb, tanınmış media nümayəndələri tərəfindən ustad dərsləri keçilib. MEDİAFEST bir neçə gün ölkə mediasının gündəmindən düşməyib, Xəzər TV, AZƏRTAC, APA, REPORT, "Azərbaycan" qəzeti və digər media orqanlarında geniş şəkildə işıqlandırılıb, tədbirin mahiyyətini üzə çıxaran silsilə materiallar yer alıb. "Şərq qapısı" qəzetinin 4 iyun tarixli xüsusi buraxılışında da MEDİAFEST geniş işıqlandırılıb. "MEDİAFEST, Azərbaycan milli mətbuatının 150 illiyi" başlığı altında MEDİAFEST iştirakçılarının təəssüratları, Naxçıvan mediası ilə bağlı fikirləri, eləcə də mərkəzi mətbuatda işıq üzü görən "Naxçıvanda media sammiti", "Naxçıvanda mühüm tədbir: üç tanınmış media nümayəndəsinin diqqətini nə çəkib?", "20 il yaşayan 14 gün, Zərdabinin zühuru və çuxur göycəsi", "Zərdabinin ruhunu şad edən Naxçıvan" başlıqlı müəllif yazıları dərc olunub. Qəzetin 19 iyul nömrəsində 22 iyul – Milli mətbuat günü ilə bağlı yazılara geniş yer verilib. "Azərbaycan milli mətbuatı-150" başlığı altında "Naxçıvanda media siyasəti: informasiya blokadasından qlobal yayıma", "Həsən müəllimlə söhbət", "Daş oldum ki, unudulmasın söz", "Nəşriyyat işçiləri mətbuatın 150 illiyinə töhfələrini verir" başlıqlı məqalələr, Əməkdar jurnalist Hüseyn Əsgərovla müsahibə, eləcə də NDU-nun Jurnalistika ixtisasında oxuyan tələbələrin yazıları dərc olunub.

## "Şərq qapısı"nın nüfuzu artır, qəzetə istinad çoxalır

2025-ci il həm də "Şərq qapısı" qəzetinin fotojurnalistikanın inkişafına töhfə vermək baxımından fəaliyyətini daha da təkmilləşdirməsi ilə yadda qaldı. İl ərzində bir-birindən maraqlı fotolentləri ilə izləyicilərin görüşünə gələn mətbu orqanın bu sahə üzrə əməkdaşları öz fəaliyyətlərini gücləndirmək üçün təlimlərə qatılıblar. Mart ayında Naxçıvan Təlim Mərkəzi və "Şərq qapısı" qəzetinin birgə təşkilatçılığı ilə "Fotojurnalistika" mövzusunda təlim keçirilib. Azərbaycan Fotoqraflar Birliyinin təsisçisi, tanınmış fotoqraf Mirnaib Həsənoğlunun apardığı təlimdə "Şərq qapısı" qəzetinin və bir sıra dövlət qurumlarının fotoqrafları iştirak ediblər. Qəzetin foto keyfiyyətinin artırılması istiqamətində atılan addımlar onun bu sahədəki nüfuzunun da güclənməsinə, əməkdaşların imicinin artmasına imkanlar açıb. Bu xüsusda ötən il işıq üzü görən Azərbaycan Fotoqrafları Birliyinin yeni layihəsi olan "Land of Fire Through the Lens" adlı fotoalbomunu diqqətə çəkmək olar. Nəşrdə Azərbaycanın gözəlliklərini əks etdirən 47 fotoqrafın əsərləri yer alıb. Albomda "Şərq qapısı" qəzetinin fotoqrafları – Əsəd Səfərov və Əli Xudiyevin çəkdiyi fotolar da təqdim olunub. Bu fotolarda Naxçıvanın təbiəti ustalıqla əks etdirilib.



Sevindirici haldır ki, artıq qəzetin əməkdaşları uğurlu yazıları ilə nəinki oxucuları sevindirir, həm də ölkə səviyyəli müsabiqələrdə qaliblər sırasında yer alır. Ötən il də bu istiqamətdə növbəti nailiyyət əldə edilib. Medianın İnkişafı Agentliyinin elan etdiyi "Fərdi jurnalist müsabiqəsi"ndə "Şərq qapısı" qəzetinin şöbə müdiri Ceyhun Məmmədov "Ən yaxşı reportaj" nominasiyası üzrə qalib elan olunub.

Qəzetin artan nüfuzu nəticəsində ölkənin müxtəlif aparıcı media qurumları və internet resurslarının "Şərq qapısı"na istinadı artıb. Mətbu orqanın sosial hesablarında məktəbli qızın xarici turistə Haçadağ haqqında ingilis dilində məlumat verdiyi görüntülər ölkə mediasında marağa səbəb olub və geniş paylaşılıb. Qəzet əməkdaşlarının Heydər Əliyev adına Hərbi Liseydən hazırladığı video Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "Instagram" hesabında, "Gimnastika hamı üçün" adlı video Azərbaycan Gimnastika Federasiyasının "Instagram" hesabında paylaşılıb. Heydər Əliyev su anbarının, Əshabi-kəhfin və Naxçıvan şəhərinin qış mənzərələri ilə bağlı videolar ölkə mediası, xüsusilə Xəzər televiziyası tərəfindən yayımlanıb, kadrlar şərh edilib.

Qəzet ötən il media tərəfdaşı olaraq fəaliyyətini daha da artırıb, qurumlara media dəstəyini gücləndirib. Mayın 21-də Naxçıvanda Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının təşkilatçılığı, Milli Kibertəhlükəsizlik Mərkəzinin və "Caspel" MMC-nin əsas tərəfdaşlığı ilə keçirilən konfransda "Şərq qapısı" qəzeti media tərəfdaşı kimi iştirak edib. Peşəkar media dəstəyinə görə mətbu orqan AKTA tərəfindən təşəkkürnamə ilə təltif olunub.

## Qəzet əməkdaşları ölkə və beynəlxalq səviyyəli tədbirlərə dəvət alırlar

2024-cü ildən fəaliyyətinin hüquqi bazası müəyyənləşdirilən "Şərq qapısı" qəzetinin nüfuzu qeyd etdiyimiz kimi, artıq muxtar respublikanın sərhədlərini aşaraq ölkə səviyyəsinə qalxıb. Bunu göstərən ən mühüm amillərdən biri də əməkdaşların ölkənin digər yerlərində, o cümlədən Bakı şəhərində keçirilən tədbirlərə dəvət almasıdır. Başa vurduğumuz il də bu baxımdan yaddaqalan olub. Belə ki, qəzet Prezident İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) "Davamlı və iqlimə dayanıqlı gələcəyin qurulmasında qadınların rolunun artırılması" mövzusunda Laçın şəhərində keçirilən Qadınlar Forumunda və Heydər Əliyev Mərkəzində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfransda uğurla təmsil olunub. Mətbu orqanın bölmə müdiri Məhəbbət Mirzəyeva Bakı şəhərində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təşkil etdiyi tədbirə qatılıb, qəzetin əməkdaşı Səhnə Tağızadə Heydər Əliyev Fondu tərəfindən təşkil edilən Bakı Marafonunun fəxri iştirakçısı seçilib. Qəzet ötən ilin dekabr ayında Bakı şəhərində keçirilən Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyasının illik fəaliyyətinə həsr olunmuş hesabat tədbirində də uğurla təmsil olunub.

## "Konstitusiya və Suverenlik İli"nə, tarixi zəfərin 5 illiyinə mətbu töhfələr

Bildiyimiz kimi, Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2025-ci il "Konstitusiya və Suverenlik İli" kimi müasir tariximizə qızıl hərflərlə yazıldı. Ötən il həm də zəfərimizin 5-ci ildönümü yüksək səviyyədə qeyd edildi. Naxçıvanın qocaman mətbu orqanı "Şərq qapısı" da məhz bu istiqamətdə üzərinə düşən məsuliyyətin öhdəsindən layiqincə gəlməyə çalışdı. Belə ki, ötən il Vətən müharibəsində qazanılan zəfərin 5-ci ildönümü münasibətilə qəzetdə "Zəfər yolu" və "Zəfər tarixi" adlı rubrikalar açılaraq silsilə yazılar dərc olundu.



"Şərq qapısı" qəzetinin "100 ilin qəhrəmanları" layihəsi çərçivəsində il ərzində şəhid ailələri ziyarət olundu, çap olunan eyniadlı kitab qəzetin gənc əməkdaşları tərəfindən bütün şəhid ailələrinə təqdim edildi. Eyni zamanda noyabrın 4-də "Konstitusiya və Suverenlik İli", tarixi zəfərin 5 illiyi ilə əlaqədar mətbu orqanın elan etdiyi "Müstəqil Azərbaycan: Konstitusiya və Suverenlik ilinin təntənəsi" mövzusunda yaradıcılıq müsabiqəsinin yekun tədbiri keçirildi, qaliblər mükafatlandırıldı. Həmçinin "Şərq qapısı" qəzetinin əməkdaşları 27 sentyabr – Anım Günü ilə əlaqədar şəhidlərin əziz xatirəsinə ehtiram əlaməti olaraq Haçadağa yürüş etdilər. Üzərinə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ***"...Qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirik. Biz şəhidlərimizi öz qəlbimizdə əbədi saxlayacağıq"*** sözləri həkk olunan tablonu Haçadağın zirvəsinə sancıb, müstəqilliyimiz və suverenliyimizin rəmzi sayılan üçrəngli Dövlət Bayrağını dalğalandırdılar.

Vətən müharibəsində qazanılan tarixi zəfərin beşinci ildönümü münasibətilə redaksiyada "Şərq qapısı" qəzetində bir gün" adlı tədbir keçirilib. Tədbirdə şəhid övladları qəzetin iş prosesi ilə tanış olublar. Qəzetin 10 noyabr tarixli xüsusi buraxılışı Zəfər Gününə həsr olunub. 8 noyabr – Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin bəyanatı, "Qalib xalq, qətiyyətli sərkərdə, müzəffər Ordu", "150+5: Sözümüz zəfərlə ucaldı, yaxud tarixin iki böyük qovuşması-2025", "Zəfərin beşinci qalibiyyət yürüşü", "Vətən müharibəsinin tarixi zəfəri" sərlövhəli məqalələr dərc olunub. Ötən il həm də qəzetin şöbə müdiri Ramiyə Əkbərovanın Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış itkin şəhid İbrahim Vəlizadəyə həsr edilmiş "Murovdan gələn səda" adlı kitabı işıq üzü görüb.

## Gənclərin, tələbələrin qəzetlə əməkdaşlığı gücləndirilib

Ötən il gənclərin qəzetlə əməkdaşlığına xüsusi diqqət yetirilib, bu sahədə işi daha da gücləndirmək məqsədilə onlarla görüşlər keçirilib. Noyabr ayında Naxçıvan Dövlət Universitetində "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Sara Əzimovanın Jurnalistika, Azərbaycan dili və ədəbiyyatı müəllimliyi və Filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisaslarında təhsil alan tələbələrlə görüşü əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından yadda qalan olub. Həmçinin Naxçıvan Dövlət Universitetinin "Enactus" komandasının üzvləri qəzet redaksiyasında olub, mətbu orqanın iş prinsipi ilə əyani tanış ediliblər. Həyata keçirilən sosial və innovativ layihələrə media dəstəyinin göstərilməsi, bu sahədə qarşılıqlı əməkdaşlıq imkanları gənclərlə keçirilən görüşdə müzakirə olunub.

Gənclər sahəsində qəzetin apardığı təşviqat işləri öz bəhrələrini verib, yeni əməkdaşlıq körpüləri qurulub. İyunun 11-də Naxçıvan şəhərində keçirilən II karyera sərgisində "Şərq qapısı" öz stendi ilə təmsil olunub və Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi Elnurə Cəfərova qəzetdə işlə təmin olunub. Ümumilikdə, 2025-ci il ərzində "Şərq qapısı" qəzeti redaksiyasında 12 nəfər müvafiq sahələr üzrə əmək fəaliyyətinə başlayıb.

## 51 nömrə, 4 xüsusi buraxılış

Qəzet 2025-ci il ərzindəki fəaliyyətini redaksiyanın təsdiq olunmuş İş Planına uyğun, aparılan dövlət siyasəti, ölkədə baş verən ictimai siyasi proseslər, muxtar respublikanın sosial-iqtisadi, ictimai-siyasi həyatı ilə bağlı müxtəlif mövzularda materialları işıqlandırıb. İl ərzində Ümummilli Lider Heydər Əliyevin zəngin irsi ilə bağlı 40 məqalə, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər, rəsmi və işgüzar səfərləri, görüşləri, beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirakı haqqında 150 analitik yazı qəzetdə işıq üzü görüb. Qəzetin 4 may tarixli xüsusi buraxılışı Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyevanın Naxçıvan Muxtar Respublikasına səfərinə həsr olunub. Həmçinin "Leyla və Arzu Əliyevaların Naxçıvan səfəri: tarixə, təbiətə və insana dəyər" sərlövhəli məqalə, muxtar respublikanın tarixi, təbiəti, qorunan dəyərləri ilə bağlı yazılar qəzetin səhifələrində yer alıb.

Qəzetdə ilboyu Qarabağın tarixi, təbiəti və yeni büsatından bəhs edən məqalələr dərc edilib. İşğaldan azad olunmuş ərazilərdə aparılan quruculuq və bərpa işləri ilə bağlı, ümumilikdə, işıq üzü görən materialların sayı 42 olub. "Qərbi Azərbaycana qayıdış" konsepsiyasına uyğun 15 informasiya və məqalə qəzet səhifələrində yer alıb. Eyni zamanda Prezident İlham Əliyevin 2023-cü il 5 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq qəzet əməkdaşları tərəfindən müxtəlif istiqamətləri əhatə edən 97 material hazırlanaraq dərc olunub. Həmçinin İğdır-Naxçıvan qaz kəmərinin açılışı ilə bağlı TBMM-nin İğdırdan olan deputat Cantürk Alagöz və türkiyəli jurnalist Sərdar Ünaldan operativ müsahibələr alınıb.

2025-ci ildə "Şərq qapısı" qəzetinin 51 nömrəsi işıq üzü görüb. Qəzetin 42 nömrəsi 12 səhifə, 1 nömrə 4 səhifə, 1 nömrə 8 səhifə, 3 nömrə 16 səhifə, 1 nömrə 14, 3 nömrə 20 səhifə həcmində nəşr olunub. Qəzetin il ərzində 4 nömrəsi xüsusi buraxılış olaraq çapdan çıxıb. May ayında qəzetin "Ədəbi nəfəs" adlı 4 səhifəlik ədəbiyyat əlavəsi işıq üzü görüb. Zəruri informasiyaların qəzetin rəsmi internet və sosial şəbəkə hesablarında yerləşdirilməsinə diqqət göstərilib, qəzetin bütün nömrələrinin PDF variantları saytda yer alıb, eyni zamanda PDF variantlar çap mediası məhsullarının elektron yayım platformasına – e-köşkə (e-kiosk.az) yerləşdirilib. Aprel ayında "Telegram", oktyabr ayında qəzetin rus dilində "Instagram" hesabı açılıb. Qəzetin saytında 18 min 439 material yerləşdirilib. İl ərzində muxtar respublika ilə bağlı materialların rus dilinə tərcümə edilərək qəzetin saytına yerləşdirilməsi təmin edilib. Ümumilikdə, 390 müxtəlif mövzulu material tərcümə edilərək yayımlanıb. Qəzetin baş redaktorunun 20 Yanvar faciəsi ilə bağlı yazısı İtaliya mətbuatında dərc olunub.




## Qəzetin saytına aylıq baxış 20 mini ötüb

Qəzetin fəaliyyətində ən böyük nailiyyətlərdən biri də onun sosial şəbəkə hesablarında aktivliyinin artırılması və müasir izləyici maraqlarına uyğun gündəmin nəbzini tutan materialların yayımlanmasıdır. Nəticə etibarilə, ötən il mətbu orqanın sosial şəbəkə hesablarına və saytına giriş, materiallara baxış sayı artıb. Qəzetin saytına (serqqapisi.az) aylıq baxış statistikası 20 mini ötüb.

2025-ci ildə "Şərq qapısı" qəzetinin sosial şəbəkə hesabları gücləndirilib, izləyici sayı çoxalıb. "Instagram"da izləyici sayı ötən il 18 min olduğu halda, bu il 24 mini ötüb. Qəzet "Facebook"da 5800, "TikTok"da 26 min 600-dən çox izləyici kütləsinə çatıb.

## Son 30 ilin ən böyük uğuru

Milli mətbuatın 150 illiyi çərçivəsində "Şərq qapısı" qəzetinin tarixinə düşən növbəti böyük nailiyyət isə əməkdaşların dövlət təltiflərinə layiq görülməsidir. Belə ki, Naxçıvan Muxtar Respublikasının media nümayəndələrinin təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı ilə qəzetin baş redaktoru və 1 əməkdaşı "Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti" fəxri adına, 3 nəfər "Naxçıvan Muxtar Respublikasına xidmətlərə görə", 1 nəfər "Rəşadətli əməyə görə" nişanları ilə təltif ediliblər.

Bildiyimiz kimi, Prezident İlham Əliyevin 2025-ci il 20 fevral tarixli Fərmanı ilə "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilib. Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və media ilə əməkdaşlıqda fərqlənən şəxslər yubiley medalı ilə təltif olunublar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəsmi mətbuat orqanı olan "Şərq qapısı" qəzetinin bir qrup əməkdaşı da yubiley medalı ilə təltif olunanlar arasında yer alıb. Xüsusi vurğulamaq yerinə düşər ki, 2025-ci ildə "Şərq qapısı" qəzetinin əməkdaşları ən çox dövlət təltifinə layiq görülərək son 30 ilin ən böyük uğuruna imza atıblar.




## 2026-cı ildə yeni hədəflərə doğru

2025-ci il ölkəmizin həyatında mühüm, əlamətdar tarixi hadisələrlə yadda qaldı. Prezident İlham Əliyevin həyata keçirdiyi çoxvektorlu xarici siyasət doktrinası və iqtisadi-inkişaf konsepsiyası sayəsində Azərbaycan beynəlxalq miqyasda yeni siyasi qələbələrə, qlobal iqtisadi uğurlara imza atdı. "Şərq qapısı" qəzeti olaraq biz də ölkə başçısının həyata keçirdiyi işləri, tarixi səfərlərinin, verdiyi qərar, sərəncam və fərmanların mahiyyətini ortaya qoyan şərhlərlə, məqalə və analitik yazılarla oxucuların görüşünə gəlməyə çalışdıq.

2026-cı ildə "Şərq qapısı" qəzetinin 105 yaşı tamam olacaq. Bu baxımdan, bu ilin mətbu orqanın əməkdaşları üçün daha məsuliyyətli, daha əlamətdar bir il kimi tarixə düşəcəyini indidən demək mümkündür. Ölkəmizin, o cümlədən Naxçıvanın ictimai-siyasi həyatının bənzərsiz güzgüsünə çevrilmək yolunda inamla addımlayan "Şərq qapısı" qəzeti üçün hər gələn ilin ötən ildən daha məhsuldar, daha uğurlu olması diləyi ilə...

✍ **Nail ƏSGƏROV**

# Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışı

“Şəhərsalma və Memarlıq İli”

## Qarabağın bərpa edilməklə dirçəldilməsi milli iradənin təzahürüdür

***Otuzillik həsrətdən sonra əbədi və əzəli torpaqlarımıza qovuşanda qarşılaşdığımız mənzərə nə insanlığa nə də düşmənçiliyə sığmırdı. Qafqazın Xerosimasına dönən Ağdam, tarixi və mədəniyyəti yerləyeksan edilən Füzuli, daşı daş üstündə qalmayan Xocalı, kəndi-kəssəyi viran edilən Cəbrayıl, tövləyə çevrilmiş məscidlərimiz, tarixi kimliyi dəyişdirilməyə çalışılan Xankəndi, Şuşa...***

***Qədim Azərbaycan torpağının başına yüz illərdir, hər bir müsibəti açan düşmən bu dəfə daha da irəli getsə də, biz torpağımızı tək başına öz gücümüzə azad etdiyimiz kimi onu bərpa etməyi də bacardıq. Zəfərin ardınca otuz il ərzində viran qoyulan ərazilərimizdə innovativ yanaşmaların tətbiqi ilə həyatı yenidən canlandıran genişmiqyaslı bərpa-quruculuq işləri başladı. Bu isə Azərbaycan dövlətinin memarlıq və şəhərsalmaya müfəssəl baxışını aydın nümayiş etdirdi.***







## 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər

Ölkə başçısı işğaldan azad olunan ərazilərdə olarkən hər zaman diqqəta çatdırır ki, biz Qarabağı cənnətə çevirəcəyik, baxmayaraq ki, düşmən buraları xarabaya çevirib: ***“Mən Ağdam şəhərində olarkən bir salamat bina tapmadım, Füzulidə də, həmçinin, Cəbrayılda da, həmçinin. Hər tərəfi dağıdıblar, elə bil ki, vəhşi qəbilə keçib oradan. Biz isə qurub-yaradanıq. Biz bu şəhərləri, bu rayonları yenidən dirçəldəcəyik”.***

Son beş ildə Qarabağda böyükhəcmli infrastruktur layihələri həyata keçirilir. Yollar, hava limanları, məktəblər, elektrik stansiyaları, xəstəxanalar, yaşayış binaları, mədəniyyət və təhsil obyektləri, turizm məkanları tikilir, saymaqla bitməyən işlər görülür. Bərpa olunan məscidlərdən azan səsi yüksəlir. Öz çıxışlarında bütün bunların sadalamaqla bitməyəcəyini deyən dövlət başçısı bildirdi ki, Qarabağın dirçəldilməsi ən mühüm vəzifələrdən biridir ki, bu sahədə mühüm işlər görülür: ***“Bu gün ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda yeni istehsalat sahələri açılır. O cümlədən böyük rəmzi məna daşıyan “İstisu” su zavodunun açılışı olmuşdur və artıq istisu yenə də bizim süfrəmizdədir. Bu, doğrudan da, həm böyük rəmzi məna daşıyır, həm də ki, tarixi ədalətin bərpasıdır”.***

Ölkə başçısının 2026-cı ilin “Şəhərsalma və Memarlıq İli” elan edilməsi ilə bağlı imzaladığı Sərəncamında deyilir: ***“Böyük Qayıdışa dair I Dövlət Proqramına müvafiq qaydada “yaşıl enerji” zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illərdə – dünya memarlıq-inşaat təcrübəsində az rast gəlinən qısa bir müddətdə 100-dən artıq yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış və quruculuq işlərinə başlanılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin əvvəlki memarlıq mühiti və əsl tarixi siması bərpa edilməklə dirçəldilməsi isə milli iradənin təzahürüdür”.***

Zəfərdən keçən beş il ərzində Azərbaycan kimi kiçik bir ölkənin heç bir yardım almadan xarabaya çevrilmiş onlarla kəndi və şəhəri belə qısa bir müddət ərzində dirçəltməsi dünya tarixində, bəlkə də, görülməmiş bir memarlıq hadisəsi idi. Belə qısa müddətdə Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa və yenidənqurma işləri bütün məziyyətləri ilə yanaşı, dövlətimizin gücünün də təsdiqidir. Nəhəng infrastruktur layihələrinin icrasının başa çatdırılması həm torpaqlarımızın xilaskarı Prezident İlham Əliyevin böyük siyasi iradəsinin təcəssümü, həm də dövlət-xalq birliyinin ən gözəl nümunəsidir. Onu da qeyd etmək yerinə düşər ki, işğaldan azad olunmuş ərazilərimizdə bərpa işləri hələ Vətən müharibəsinin davam etdiyi günlərdən başlanmışdı. Belə ki, ilk qələbə müjdəmiz olan Suqovuşana və Talışa gedən yolun çəkilişinə start veriləndə hələ hərbi əməliyyatlar davam edirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin azad edilmiş ərazilərə ilk səfəri “Zəfər yolu”nun təməlinin qoyulması ilə yadda qaldı. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura səfərləri işğaldan azad olunmuş ərazilərimizin sürətlə bərpa olunduğunu bütün dünyaya nümayiş etdirdi. İlk köç qədim Zəngilanın Ağalı kəndindən başlayanda vaxtilə torpağımızı əsarətdə saxlayan düşmənin ağlına gəlməzdi onların xarabaya çevirdiyi, viran qoyduğu yerlərdə ağıllı kəndlər qurulacaq. İllərlə zirvəsində özlərinə çaqqal yuvası qurub yaşadıqları Murovun buz kəsmiş aşırımları zəhmətkeş azərbaycanlıların nəfəsinin hənirtisi ilə əriyəcək. Başı göylərə ucalan dağların bağrı açılaraq salınan dərin tunellər bizi torpağımıza daha da yaxınlaşdıracaq. Biz bunu bacardıq. Artıq 70 minə yaxın insan isti ocağında öz çırağını yandırır, yaşayır, çalışır, təhsil alır. 32 kənd, qəsəbə və şəhərdə yerləşən keçmiş məcburi köçkünlər üçün ən gözəl şərait yaradılıb. İnsanların məşğulluğu təmin edilib. İllər sonra öz doğma evinə qayıdan hər kəs Müzəffər Sərkərdəsinə və məğrur oğullarına minnətdarlıq hissi ilə ömür sürür.

## Tarixi abidələrə yeni nəfəs verilib

Bəşər sivilizasiyasının ilk yaşayış məskəni Azərbaycanın ayrılmaz guşəsi olan Qarabağ ərazisində, demək olar ki, bütün dövrlərə aid abidələr mövcuddur. Qarabağda Azıx, Tağlar mağaraları, Xocalı kurqanları, Babadərviş, Qaraköpəktəpə yaşayış yerləri və sair abidələr Azərbaycan arxeoloqları tərəfindən tədqiq edilmişdir. Azad olunan ərazilərimizdə 706-sı dövlət qeydiyyatında olmaqla, 2600-dən çox tarix-mədəniyyət abidəsi var. Şuşa qalası, Xudafərin körpüləri, Gəncəsər, Xudavəng monastırları, Qutlu Musa türbəsi, Qarabağ və Şərqi Zəngəzurda dünya əhəmiyyətli tarix-mədəniyyət abidələridir. Onlardan bəziləri artıq bərpa edilib. Bununla yanaşı, Üzərliktəpədə də arxeoloji işlər həyata keçirilir. Həmçinin Üzeyir bəy Hacıbəylinin heykəli, Molla Pənah Vaqifin büstü və məqbərəsi, Bülbülün ev-muzeyi, Aşağı və Yuxarı Gövhər ağa, Saatlı, Ağdam Cümə məscidləri öz doğmalarını gözəl siması ilə qarşılayır.

***“Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla – yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk”***, – deyən xalqımızın Ümummilli Lideri Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə bu abidələrin mühafizə, bərpa, konservasiya, tədqiqat və təbliğat işlərinin təkmilləşdirilməsini bir vəzifə olaraq qarşıya qoymuşdur. Ulu Öndərin adını daşıyan fondun işğaldan azad olunan ərazilərdəki fəaliyyəti nəticəsində işğal dövründə dağıdılmış tarixi abidələrimizin milli kimliyi son beş ildə özünə qaytarılır.

Vaxtilə düşmən vandallığı ilə xarabaya dönən məscidlərimizdən yüksələn azan səsi düşmənin qulağını kar edir. Yenidən həyata dönən Qarabağda ucalan tarixi abidələr isə bu yerlərin əbədi sahibi olduğumuzu bir daha sübut edir. Bu gün Şuşada Aşağı və Yuxarı Gövhər ağa, Saatlı məscidlərindən ucalan azan səsini, Xocalının qarlı küçələrində qartopu oynayan uşaqların gülüşünü, Zəngilandan ucalan toy sədasını eşidən, Laçında ayaq tutub yeriyən körpənin addımlarını görən hər bir azərbaycanlı bütöv Azərbaycan üçün can verən oğulları ilə qürur duyur.

**Ramiyə ƏKBƏROVA**



# Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır

## Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir

Tarix bir çox xalqlar arasında müharibələrə şahidlik edib. Qoca dünyanın elə bir anı olmayıb ki, bütöv dünyada sabitlik hökm sürsün. Dünyanın mənzərəsində bütün dövrlərdə süqut da olub, dirçəliş də, rifah da var olub, səfalət də, müharibə də, sülh də. Əsrlər bir-birini əvəz etdikcə hərbi və siyasi qarşıdurmalar nəinki azalır, əksinə, daha da artır. Dünyanın bir qitəsində başa çatan münaqişənin odu soyumamış başqa bir küncündə yeni bir münaqişə başlayır. Bəzi ölkələrdə isə vəziyyət daha da çətin və dözülməz olur. Həm xarici təsir, həm də etnik, dini qarşıdurmaların və terrorçuluğun fəsadlarından, bitməyən siyasi çəkişmələrdən əziyyətçəkən ölkələr isə bir çox hallarda hansısa dövlətin vassalına çevrilir, yox olmaq, dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalır. Bütün bunlar isə həmin xalqın yaddaşına dərin iz salır, insanlara ağır mənəvi zərbə vurur və məhrumiyyətlərə düçar edir. İllərlə müharibə şəraitində yaşayan dövlətlərin taleyi dəyişir və xalqın faciəsi başlayır.

Bu isə həmin dövləti iqtisadi, milli və mənəvi tənəzzülə gətirib çıxarır. Müharibə meydanına çevrilən dövlətlərin, xarabaya çevrilən ərazilərin bərpası və çökən iqtisadiyyatın dirçəldilməsi, dağıdılan ordunun yenidən ayağa qalxması üçün isə uzun onilliklər yetmir. Tarixin bütün dövrlərində sübut olunub ki, sabitlik hər bir dövlət və xalq üçün olduqca vacibdir və önəmlidir. Dünyamızda isə sabitlik yolunda irəliləməyi hər ölkə bacarmır. Bu gün dünyada baş verən bir çox çaxnaşmalar fonunda Azərbaycanda sabitliyin hökm sürməsi dövlətimizin və xalqımızın ən böyük uğurlarından biridir. Respublikamızın əldə etdiyi bütün nailiyyətlərin kökündə dayanan əsas amillərdən biri məhz sabitlikdir.

## Ötən əsrin çətin günlərindən sabit, bütöv Azərbaycan naminə

Azərbaycanı bugünkü sabitliyə gətirən yollar isə elə də asan olmayıb. Çox da uzaq olmayan keçmişimizdə ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə baş verən hadisələr bir çoxumuzun yaxşı xatirindədir. Dahi rəhbərin Moskvadan Bakıya qayıdışı və oradan isə Naxçıvana gəlişi bugünkü güclü Azərbaycanın təməlinin atılmasına səbəb oldu. Ümummilli Liderimiz Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində çalışdığı illərdə mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul edib. O, gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Təkcə muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail olundu.

Həmin illərdə ölkəmizin digər bölgələrində anarxiyanın, xaosun, separatizmin baş alıb getdiyi, hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi, idarəçilikdə buraxdıqları bağışlanmaz səhvlər şəraitində sabitlikdən danışmaq mümkün deyildi. Hansı ki bunlar Azərbaycanın müstəqilliyi və dövlətçiliyi üçün böyük təhdidlər doğurmuşdu. Naxçıvanda baş verənlər ölkə ictimaiyyəti tərəfindən yaxından izlənilirdi. Baxmayaraq ki, mərkəzi hakimiyyət buradakı hadisələrə laqeydliklə yanaşırdı. Böyük dövlət xadiminin Naxçıvandakı idarəetmə uğurları isə göz qabağında idi. Dərin zəkası, uzaqgörənliyi, tükənməz enerjisi və təhlil bacarığı görkəmli dövlət xadiminə imkan verirdi ki, ən çətin və çıxılmaz vəziyyətlərdə öz xalqı və Vətəni üçün mümkün variantın ən düzgününü seçib gərginliyi aradan qaldırsın.

Bütün bunları görən xalqımız ölkədəki xaos və anarxiyanı aradan qaldırmaq, Azərbaycan dövlətçiliyini xilas etmək naminə Ulu Öndərin ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı. Bir tərəfdən Azərbaycanın cənnəti Qarabağ düşmən tərəfindən işğal edilir, digər tərəfdən isə Gəncə şəhərində qiyam baş verir və qardaş qardaşa güllə atırdı. Bir sözlə, Azərbaycan məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Dahi rəhbər bu acı hadisələrə laqeyd qala bilməzdi. Onun Bakıya qayıdışı xalqın sevincinə səbəb oldu. 1993-cü ilin iyununda paytaxta qayıdaraq həmin il oktyabrın 3-də keçirilən prezident seçkisində 97,6 faiz seçici fəallığı ilə Ulu Öndər səslərin 98,8 faizini alaraq Azərbaycan Prezidenti seçildi. Dahi rəhbərin siyasi hakimiyyətə gəlişindən sonra respublikamız bütün bu problemlərdən xilas oldu. Başlıcası siyasi-ictimai sabitlik təmin edildi.

Prezident İlham Əliyevin fikirləridir: ***"Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu bizim böyük nailiyyətimizdir".***

2020-ci ilə kimi ölkədəki sabitliyə təhdid yaradan əsas problem torpaqlarımızın işğalda olması və Qarabağdakı erməni separatizmi idi. Vətən müharibəsində və antiterror tədbirlərində qazanılan zəfərlərdən sonra bütün bu təhdidlər tam aradan qaldırıldı. Ərazi bütövlüyümüzün bərpası ilə Azərbaycan torpaqlarının hər bir nöqtəsində sabitlik bərqərar olundu. 200 ildən sonra Azərbaycan torpaq iddialarına son nöqtəni qoydu və Qarabağ adlı problem əbədi olaraq həll edildi. Biz Qafqazda sülhü bərqərar edən xalq kimi adımızı tarixə yazdıq. Ölkə başçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin döyüş meydanındakı cəsarətli addımları diplomatik masadakı qələbəni təmin etdi. Dövlət başçısının dediyi kimi: ***"Biz hamımız gördük ki, bəli, ədalət zəfər çalıb, biz öz haqq işimizi yekunlaşdırmışıq və ədaləti özümüz bərpa etmişik".***

Qürur hissi ilə deyirik ki, Vaşinqton görüşlərindən keçən beş ayda sərhəddimizdə bir güllə səsi belə eşidilmir. Hazırda dövlətimizə yaxın, qonşu dövlətlərdə təhlükəsizliklə, sabitliklə bağlı problemlər yaşanır. Danılmaz faktdır ki, bu problemlərin sonu görünməzdir. Ətrafımızda baş verən hadisələr fonunda isə Azərbaycan dövləti özünün sabitliyini və inkişafını uğurla təmin edir. Biz daxili sabitliyə nail olmuşuq və onu dövlət-xalq-ordu birliyi, Vətən, torpaq sevgisi ilə qazanmışıq. Və elə bütün bunların nəticəsidir ki, bu gün Azərbaycan dünyada sabitlik adası kimi tanınır.

**"Şərq qapısı"**



# Dil xalqın gələcəyi, varlığı üçün əsas vasitədir

Prezident İlham Əliyevin yerli televiziya kanallarına verdiyi son müsahibədə ana dilimizin qorunması ilə bağlı səsləndirdiyi fikirlər bu mövzunun nə qədər aktual və strateji əhəmiyyət daşıdığını bir daha gündəmə gətirdi. Dövlət başçısı çıxışında Azərbaycan dilinin milli kimliyimizin əsas dayaqlarından biri olduğunu vurğulayaraq bu məsələyə hər bir vətəndaşın məsuliyyətlə yanaşmalı olduğunu xüsusi qeyd etdi. ***“Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm”***, – deyə Prezident İlham Əliyev bildirib. Məhz bu çağırış fonunda dilimizin bugünkü durumu və qarşıda duran vəzifələrlə bağlı AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyevlə həmsöhbət olduq.

İnstitutun direktoru qeyd etdi ki, dilin saflığının və zənginliyinin qorunması təkcə dövlətin deyil, cəmiyyətin bütün təbəqələrinin üzərinə düşən mühüm missiyadır: “Dil məsələsi millət üçün, dövlət üçün strateji məsələdir. Dövlətçiliyin əsas atributu dil sayılır. Dil olmasa, dövlətin milli birliyi olmaz. Hələ Ulu Öndər 1969-cu ildə hakimiyyətə gəldiyi dövrlərdən başlayaraq Azərbaycanın milli birliyinə xidmət edən əsas məsələlərdən biri kimi dil məsələsini ön cərgəyə çəkmişdi. Və bu istiqamətdə ana dilinin inkişaf etdirilməsi sovet dövlətləri içərisində də milli birlik xəttində fəaliyyətini davam etdirirdi”.

“1978-ci il Konstitusiyasına “Dövlət dili Azərbaycan dilidir” maddəsinin daxil edilməsi dilimizin bu respublikanın hüdudları daxilində qanuni yerini hüquqi şəkildə müəyyən etdi. Ulu Öndər bu istiqamətdə Azərbaycan dilinə aid dərsliklərin nəşrini həvəsləndirdi. Hətta 4 cildlik “Azərbaycan dili” dərsliyinin müəlliflərinə Azərbaycan Dövlət Mükafatı verildi. Azərbaycan ikinci dəfə müstəqilliyini əldə etdikdən sonra dilimizin statusu daha da möhkəmləndirildi və genişləndirildi. Azərbaycan dilinin bütün dövlət idarələrində işlədilməsi və inkişaf etdirilməsi 2002-ci ildə qəbul olunmuş “Azərbaycan Respublikasında dövlət dili haqqında” Qanun vasitəsilə hüquqi status aldı. Bundan sonra Ulu Öndərin layiqli varisi, ölkə Prezidenti İlham Əliyev də milli dil siyasətini ardıcıl şəkildə davam etdirməyə başladı”.

Professor bildirdi ki, ölkə Prezidenti 2013-cü ildə “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair” Dövlət Proqramı imzaladı. Bu proqram dilimizin hərtərəfli inkişaf etdirilməsinin əsas ana xətlərini müəyyən edirdi: “Dövlət Proqramı dilimizin həm respublika daxilində, həm də beynəlxalq müstəvidə milli sərvətimizi, Azərbaycançılıq ideologiyasının təməl sütunlarından biri kimi inkişaf etdirməyi nəzərdə tutur. İlham Əliyev son illərdə bu məsələyə daha ciddi şəkildə yanaşmağı bir nömrəli vəzifə kimi qarşıya məqsəd qoyub. Ölkə Prezidenti 2025-ci il 3 noyabr tarixdə Milli Elmlər Akademiyasının 80 illik yubileyindəki parlaq çıxışında dil məsələsinin xalqımız üçün, dövlət üçün, millət üçün çox mühüm əhəmiyyət kəsb etdiyini bir daha nəzərə çatdırdı. Və dil məsələsinin təkcə ictimai əhəmiyyət deyil, həm də siyasi əhəmiyyət kəsb etdiyini, onun milli kimliyin əsasını təşkil etməsi ilə bağlı olduğunu




vurğuladı”.

Əbülfəz Quliyev qeyd etdi ki, ölkə Prezidenti yerli televiziya kanallarına müsahibəsində dilimizin inkişafını, xarici təsirlərdən qorunmasını mühüm vəzifə kimi qarşıya qoyaraq Azərbaycan vətəndaşlarını bu istiqamətdə mübarizəyə dəvət etdi.

O qeyd etdi ki, xüsusilə xaricdən təsir alan sözlərin lüğətimizə geniş şəkildə daxil olması dilimizi pozur və milli kimliyimizi də sarsıdır. Ona görə də dilimizi qorumaq lazımdır. Bunun üçün dil sevgisi hamı üçün bir nömrəli vəzifə olmalıdır. Dili bağçadan, məktəbdən övladlarımıza sevdirməliyik. Azərbaycan dilinin daha dərindən öyrənilməsinə, tədris olunmasına diqqəti daha da artırmalıyıq. Dövlət idarələrində, rəsmi dairələrdə dövlət dili olan Azərbaycan dilinin funksiyasının təsir dairəsini genişləndirməliyik. Dilimizi sevməliyik. Təsadüfi deyil ki, bu istiqamətdə dövlət səviyyəsində planlı şəkildə işlər həyata keçirilir. Azərbaycan beynəlxalq aləmdə əməkdaşlıq etdiyi dövlətlərdə Azərbaycan dilinin öyrənilməsi ilə əlaqədar mərkəzlər yaradır. Diasporda Azərbaycan məktəblərinin təşkil olunmasını qarşıya məqsəd qoyub. Dilin xalqımızın milli-mənəvi dəyərlərindən biri kimi qorunub saxlanılmasına diqqət və qayğı artırılıb.

AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev son olaraq diqqətə çatdırıb ki, Naxçıvanda dilin təbliği ilə bağlı elmi-tədqiqat və tədris müəssisələrində yarışlar, müsabiqələr keçirilir. Ali məktəblərdə dilimizin inkişafına aid konfranslar təşkil olunur. Küçə adlarının, yer adlarının, reklamların milliləşdirilməsi istiqamətində dövlət orqanları qarşısında təkliflər irəli sürülür. Ölkə Prezidentinin qeyd etdiyi kimi, dilin qorunub inkişaf etdirilməsi milli məsələdir və hamı bu istiqamətdə səfərbər olmalı, dilimizi qoruyub inkişaf etdirməliyik. KİV-də də ədəbi dil normalarına riayət olunmasına diqqət artırılmalıdır. Bu məsələdə həssas olmalıyıq.

# Qürurla izlədik: həmkarlarım soruşdu, Lider cavablandırdı

Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəni izlədiyimdə bir cümlə xüsusilə diqqətimi çəkdi: ***“Zəngəzur dəhlizinə, ilk növbədə, Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, həm də beynəlxalq nəqliyyat dəhlizi kimi baxırıq”.***

Dövlət başçımızın bu fikri məndə siyasi bir açıqlamadan daha çox insani təsir bağışladı. Düşündüm ki, Naxçıvanla Azərbaycanın əsas hissəsi arasındakı məsafə təkcə kilometrlərlə ölçülməyib. Blokada şəraitində olan Naxçıvan bu ayrılığı illərdir, gündəlik həyatında dərindən hiss edib. Getmək, gəlmək çətin olub. Bəzən bir yolun olmaması təkcə fiziki məsafə yox, həm də psixoloji, mənəvi uzaqlıq yaradıb. İnsan istər-istəməz öz-özünə sual verir: eyni ölkənin içərisində bu qədər uzaqlıq, bu qədər həsrət niyə olsun?

Zəngəzur dəhlizi məsələsinə digər tərəfdən baxdıqda isə aydın olur ki, söhbət, sadəcə, bir layihədən getmir. Bu, münasibətlərin daha da istiləşməsi, mehribanlaşması deməkdir. Bu, uzun illər yarımçıq qalan bir bağın tamamlanmasıdır. Cənab Prezidentin fikrində də əsas vurğu məhz buna yönəlir. Naxçıvanın ölkənin əsas hissəsi ilə birbaşa və rahat şəkildə əlaqə qurması illərdir, mövcud olan bir boşluğun doldurulması deməkdir. Əgər bu yol açılarsa, insanların həyatında rahatlıq yaranacaq, əlaqələr asanlaşacaq, Naxçıvan ölkəmizə daha yaxın hiss olunacaq. Bəzən bir yol təkcə bir ərazi ilə başqa ərazini fiziki cəhətdən deyil, həm də insanların mənəvi dünyasını birləşdirir, hissləri bütünləşdirir, tamlaşdırır. Məhz bu baxımdan Zəngəzur dəhlizinin açılması Naxçıvanın Azərbaycanla daha da bütövləşməsi deməkdir. Bu təkcə yolun açılması yox, illərdir, hökm sürən bir ayrılığın sona çatması, uzun həsrətin bitməsidir.

Biz də Naxçıvan sakinləri olaraq bu yolun yenidən açılması, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə qəlbimizdə alovlanan həsrətin sona yetəcəyi günün çox yaxında olduğuna əminik!

Zəhra VƏLİYEVA

# Naxçıvanın sabahına ümidlə baxırıq

2026-cı ilin ilk günləri Prezident cənab İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibə ölkənin gələcək yol xəritəsinə işıq salan və dərin mənası ilə yaddaqalan fikirlərlə əlamətdar oldu. Biz Naxçıvan mətbuatının nümayəndələri də həmin müsahibəni anbaan izlədik. Dövlət başçısının diyarımız haqqında səsləndirdiyi hər bir fikir sabaha olan inamı möhkəmləndirir, Naxçıvanın taleyinə və gələcəyinə işıq salır. 2026-cı ilin ilk siyasi mesajının, ilk geniş ictimai müraciətinin məhz jurnalistlərlə səmimi görüş formatında olması təsadüfi deyildi. Prezidentin açıq, qətiyyətli və səmimi çıxışı bizə jurnalist kimi üzərimizə düşən məsuliyyəti bir daha xatırlatdı. Onun toxunduğu hər mövzu qürur hissi ilə yanaşı, böyük ümidlər doğurdu. Naxçıvanın inkişaf perspektivləri, strateji mövqeyi, həyata keçiriləcək layihələr barədə səsləndirilən fikirlər bu diyarın sabahına inamımızı daha da artırdı. Dövlət başçısı bu görüşdə ölkə gündəmini formalaşdıran əsas məsələlərə aydınlıq gətirməklə yanaşı, Azərbaycanın regional və qlobal miqyasda artan strateji rolunu da diqqətə çatdırdı. Xüsusilə Zəngəzur dəhlizi mövzusu Prezidentin çıxışında mühüm yer tutdu. Prezidentin ***“Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir”*** fikri bu məsələyə verilən qəti siyasi qiymətin ifadəsidir.

### *Biz cənab Prezidentə inanırıq*

Zəngəzur dəhlizi tezliklə açılacaq və bu yol xalqımızın birliyi, gələcəyi üçün böyük bir ümid işığına çevriləcək. Azərbaycan tarixinin yeni səhifəsi yazılır. Bu səhifənin baş qəhrəmanı isə öz xalqının gücünə arxalanaraq həm hərb meydanında, həm də diplomatik masada qələbəyə imza atan Müzəffər Ali Baş Komandandır. Bu gün biz Şuşaya, Zəngilana, Laçına, Füzuliyə aparan zəfər yolunun davamını görürük. Bu gün biz tarixə, sabaha, gələcəyə yol salırıq. Zəngəzur dəhlizinin açılması bölgədə yeni əməkdaşlıq imkanlarının da qapılarını açır. Zəfər təkcə silahla deyil, irada ilə, uzaqgörənliklə və sarsılmaz birliklə qazanılır. Tarixin axarını dəyişən bu yol Azərbaycanın dünyaya çıxışının yeni formatıdır. Bu, bütöv Azərbaycanın yol xəritəsidir. Həmin tarixi ana şahidlik etmək həm böyük şərəf, həm də qürurdur. Zəngəzur dəhlizinin açılması milli həmrəyliyimizin, lider ətrafında sıx birləşməyimizin və sarsılmaz iradəmizin təntənəsidir. Hərb və sülh meydanının Qalib Sərkərdəsi bu tarixin memarıdır.

Prezident İlham Əliyevin Naxçıvanla bağlı səsləndirdiyi digər mühüm fikir isə bu diyarın gələcəyinə yönələn strateji baxışın açıq ifadəsi oldu: ***“Naxçıvanın Baş planı hazırlanır. Qarabağ və Şərqi Zəngəzurda gedən tikinti işlərinə paralel olaraq Naxçıvanda da işlərə başlanılacaq”.*** Bu fikirlər Naxçıvanın inkişafının dövlət siyasətində xüsusi yer tutduğunu bir daha təsdiqləyir. Qarabağda və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı quruculuq işlərinin paralel şəkildə Naxçıvanda da başlanması qədim diyarın ölkənin ümumi inkişaf strategiyasının ayrılmaz hissəsi olduğunu göstərir. Naxçıvan üçün hazırlanacaq Baş plan bu torpağın sabahına atılan inamlı addımdır. Bu plan Naxçıvanın tarixi simasını qorumaqla yanaşı, onu müasir tələblərə cavab verən, rahat və yaraşıqlı məkana çevirməyi hədəfləyir. Burada hər daşın, hər yolun, hər binanın arxasında insan amili, vətəndaş rahatlığı dayanacaq.



Bülbül RÖVŞƏNQIZI

Bu çıxışdan aydın hiss olunur ki, Naxçıvan ölkənin inkişaf ritminin ayrılmaz tərkib hissəsidir. Qədim Nuh yurdu yeni dövrə qədəm qoyur. Naxçıvan torpağında yaşayan hər bir insanın ürəyində sabaha olan inamı bir az da möhkəmləndirir. Üç saata yaxın davam edən bu müsahibə həmkarlarımızın yerində və vaxtında ünvanlanan sualları, Prezident cənab İlham Əliyevin isə hər bir mövzuya dərindən, faktlara söykənən cavabları sübut etdi ki, gündəmdə açıq qalan, demək olar ki, heç bir məsələ cavabsız qalmadı. Və sonda səslənən bir cümlə bütün bu geniş, çoxşaxəli söhbətin mənəvi yekunu kimi yadda qaldı. Jurnalist Mir Şahin Ağayevin səsləndirdiyi “Dövlət böyük ailədir, biz sizə ailə səadəti arzulayırıq” fikri dövlətin ailə qədər doğma, rəhbərin isə bu ailənin məsuliyyətini daşıyan ata mövqeyində görünməsi həmin müsahibənin ən təsirli mesajı kimi yaddaşlarda qaldı.

Biz Sizə inanırıq, cənab Prezident! Çünki deyilən hər sözün arxasında görülən iş, verilən hər vədin arxasında əməl dayanır. Bu gün Azərbaycanın və onun timsalında Naxçıvanın sabahına ümidlə baxırıq. İnanırıq ki, atılan hər addım ölkəmizin gücünə güc qatacaq, ölkəmizi daha firavan, daha abad bir gələcəyə aparacaq.



# Sirabda içməli su problemi həll olunur



## *400-dən çox ailənin içməli su təminatı yaxşılaşdırılacaq*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə qəbul edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda sudan qənaətli və səmərəli istifadə ilə bağlı maarifləndirmə tədbirlərinin görülməsi prioritet istiqamət kimi müəyyənləşdirilib. Buna səbəb muxtar respublikanın iqlim şəraitinə uyğun olaraq suya tələbatın digər bölgələrdən bir qədər çox olmasıdır. Digər tərəfdən, su ehtiyatlarının bölgələr üzrə qeyri-bərabər paylanması və torpaqların şoranlaşmaya meyilli olması suya olan tələbatı da artırır.

Bu gün muxtar respublikanın rayon və kəndlərində əhalinin içməli su probleminin həlli istiqamətində görülən işlər Dövlət Proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi yönündədir. Babək rayonunun Sirab kəndində əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədilə Naxçıvan Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsi mühüm infrastruktur işləri həyata keçirir. Babək Rayon İcra Hakimiyyətinin dəstəyi ilə görülən işlər çərçivəsində diametri 225 millimetr olan yeni içməli su xəttinin çəkilişinə artıq başlanılıb. Xəttin ümumi uzunluğu 5500 metr təşkil edir ki, bunun da 3000 metri yeni çəkilir. Hazırda 2500 metr məsafədə boruların qaynaq işləri uğurla tamamlanıb və işlər mövcud qrafik üzrə davam etdirilir.

Layihə çərçivəsində işlər yekunlaşdıqdan sonra mövcud olan 2 subartezian quyusundan çəkilən xətlərin mənsəbində quraşdırılan subölüşdürücü qurğu vasitəsilə kəndin içməli su təchizatı yaxşılaşdırılacaq. Təfsilatlı Tədbirlər Planına uyğun olaraq digər yaşayış məntəqələri ilə yanaşı, Sirab kəndində də mərkəzi içməli su və kanalizasiya şəbəkəsinin qurulması layihəsi nəzərdə tutulub.

Kənddə olduğumuzda sakinlərdən 70 yaşlı Salman Rəhimov bizimlə söhbətində bildirdi ki, kənd quraqlıq ərazidə yerləşdiyindən illərdir, orada su problemi var. Onun sözlərinə görə, iqlim şəraiti və yağıntıların azlığı səbəbindən zamanla yeraltı sular çəkilib, bulaqlar isə tamamilə quruyub. “Uzun illərdir, susuzluqdan əziyyət çəkirik. Əvvəllər içməli suyu bulaqlardan təmin edirdik, amma artıq onlar da quruyub. Bir müddət başqa kəndlərdən su gətirməyə məcbur qaldıq. Bu isə çətin, eyni zamanda vaxt aparan bir proses idi”, – deyə kənd ağsaqqalı xatırlayır. Salman dayı onu da qeyd edib ki, hazırda kənddə mövcud olan artezian quyusu sakinlərin əsas su mənbəyinə çevrilib və əhali bu sudan istifadə edib.

Kənd ərazisinə çəkilən içməli su xətti və subartezian quyusu bu problemi aradan qaldırıb. Bununla yanaşı, son dövrlərdə həyata keçirilən layihələr kənd camaatının ümidini artırıb. Belə ki, yeni içməli su xəttinin çəkilişi nəzərdə tutulur və bu layihə reallaşdıqdan sonra, təxminən, 400-dən çox ailənin içməli su təminatının əhəmiyyətli dərəcədə yaxşılaşacağı gözlənilir.

Kənd sakinləri bu istiqamətdə atılan addımları məmnunluqla qarşılayırlar: “İcra hakimiyyəti tərəfindən göstərilən təşəbbüs bizi sevindirir. Bu layihələr kəndimizin sosial problemlərinin həllinə böyük töhfə verəcək. Həmçinin yaxın gələcəkdə daha bir artezian quyusunun qazılmasının nəzərdə tutulduğu deyilir. Bu addım Sirab kəndində su probleminin daha da yüngülləşməsinə, insanların gündəlik həyat şəraitinin yaxşılaşmasına xidmət edəcək”.

Sirab sakini Gülmalı Qurbanov isə uzun müddətdir, kəndin su problemi ilə üz-üzə qaldığını vurğulayıb: “Bu çətinliklər gündəlik həyatımıza ciddi təsir göstərirdi. Sevindirici haldır ki, mövcud problem dövlətimizin diqqət və qayğısı sayəsində mərhələli şəkildə aradan qaldırılır. Yeni çəkilən su xətti kənd sakinləri üçün əsl rahatlıq yaradacaq. Artıq sudan təmənnasız, fasiləsiz və rahat şəkildə istifadə edə biləcəyik. Bu isə məişət ehtiyaclarımızın ödənilməsinə imkan verəcək. Görülən bu işlər kəndin sosial-iqtisadi inkişafına, sakinlərin rifahının yüksəlməsinə xidmət edir və dövlətin kənd təsərrüfatına verdiyi önəmin bariz nümunəsidir”.

Dünyada öz suyu ilə məşhur olan Sirabda əhalinin rifahının yaxşılaşdırılması üçün görülən tədbirlər öz bəhrəsini verir.

# Əlincə çayından Bənəniyar gölünə 6,5 km-lik yeni beton kanal salınır



“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”na uyğun olaraq Əlincə çayından qidalanan və Bənəniyar gölünə tökülən su kanalında yenidənqurma işləri davam etdirilir.

Belə ki, uzun illərdir, istifadə olunan və dövrün tələblərinə cavab verməyən kanalın yerində müasir standartlara uyğun uzunluğu 6550 metr və su tutumu 5 kub olan yeni beton kanal salınır.



Layihəyə əsasən yeni kanal gölə suyun fasiləsiz və tənzimlənən şəkildə çatdırılmasını təmin edəcək su balansının qorunmasını və eyni zamanda yerli əhalinin su təminatını yaxşılaşdıracaq.

# Yeni texnikalar aqrar sahədə fermerlərin işini asanlaşdıracaq

*Kənd təsərrüfatı hər zaman Naxçıvanın sosial-iqtisadi həyatında aparıcı sahələrdən biri olub. Bu sahənin davamlı inkişafı, torpağın daha səmərəli istifadəsi və fermerlərin işinin yüngülləşdirilməsi isə birbaşa dövlətin diqqət və qayğısı ilə bağlıdır. Son illər həyata keçirilən məqsədyönlü proqramlar, müasir texnika və texnoloji avadanlıqlarla təminat kənd təsərrüfatında məhsuldarlığın artmasına mühüm töhfə verir. Bu diqqətin real nəticələrini “Naxçıvan Aqroservis” Açıq Səhmdar Cəmiyyətində olduğumuz zaman da aydın şəkildə müşahidə etdik. ASC-də görülən işlər, həyata keçirilən satınalmalar və fermerlər üçün yaradılan güzəştli lizinq imkanları kənd təsərrüfatının texniki bazasının gücləndirilməsinə birbaşa xidmət edir.*

“Naxçıvan Aqroservis”də olarkən cəmiyyətin sədri Cavid Ağaməliyevlə də söhbətləşdik. Sədrin sözlərinə görə, fermerlər üçün gətirilən bu texnikaların, müasir tələblərə cavab verən traktorlar, kombaynlar və digər texniki avadanlıqların alınması həm əkinçilikdə, həm də biçin və yığım proseslərində operativliyi artırır. Bu yanaşma bir daha göstərir ki, kənd təsərrüfatının inkişafı təkcə istehsal deyil, eyni zamanda kənd insanının rifahının yüksəldilməsi kimi prioritetləri özündə cəmləyir. 2025-ci ildə “Naxçıvan Aqroservis” ASC tərəfindən Gəncə Avtomobil Zavodundan ümumi dəyəri 1 milyon 532 min 800 manat olan “Belarus” markalı traktorlar satın alınıb. Alınan texnikalar sırasında “MTZ 82” və “MTZ 1221” modellərinin hər birindən 5 ədəd, “MTZ 89” 8 ədəd, “MTZ 1523” 2 ədəd, “MTZ 622” və “MTZ 1025” modellərinin hər birindən 3 ədəd, “MTZ 422” modelindən isə 1 ədəd olmaqla, ümumilikdə, 27 ədəd texnika satın alınıb. Alınan bu yeni texnikalar güc, komfort və dayanıqlılıq baxımından daha yüksək imkanları ilə seçilir. Bunlardan başqa, ötən il ərzində 36 nəfərə, ümumilikdə, 17 adda, dəyəri 1 milyon 916 min 730 manat olan 49 ədəd texnika və texnoloji avadanlıq satılıb. Satılan texniki avadanlıqlar sırasında 20 ədəd kombayn da yer alıb. Bu kombaynlara “CLASS Dominator 130”, “Sampo SR-2035” və “Sampo SR-2065” markalı modellər daxildir.

Bundan başqa, 3 ədəd traktor, 3 ədəd “Tukan Luxe PPT” və “Rostselmarsh” markalı presvuran, 2 ədəd mala və kartofəkən, 1 ədəd kartofbasdıran, 8 ədəd arı pətəyi yeşiklərlə, eləcə də taxılsəpən, qarğıdalı toxumu əkən, qarğıdalı silos maşını, ağacarası becərən, bağarası dərmansəpən, çiləyici, çalaqazan, əl üçün otbiçən, yaş və quru otdoğrayan və südsağan avadanlıqlarının hər birindən 1 ədəd satılıb. “Naxçıvan Aqroservis” ASC-nin sədri Cavid Ağaməliyevin sözlərinə görə, kənd təsərrüfatı texnikaları lizinqə verilərkən texnikanın dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onun ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq olunur. Texnikanın dəyərinin qalan 40 faizi isə 5 il müddətində ödənilir. Gələcək istiqamət planlarından danışan sədr 2026-cı il ərzində daha çox “CLASS Dominator” və “New Holland” markalı texnikaların alınması nəzərdə tutulduğunu qeyd edir. Bununla yanaşı, Naxçıvanda bağçılığın inkişaf etdirilməsi məqsədilə ağac silkələyən qurğuların, şitil əkmək və gübrə səpmək üçün avadanlıqların, su kanalı açan texnikaların, çalaqazan, mala və dırmıq kimi alətlərin, eləcə də bir, iki və üç hektarlıq ərazilər üçün çiləmə üsullu suvarma sistemlərinin və üzüm bağları üçün tənəkə məftili bağlayan qurğuların alınması planlaşdırılır. Satınalma planları təsdiqləndikdən sonra cəmiyyət müvafiq olaraq açıq elan olunacaq tenderə qatılacaq və qalib gələnəcəyi təqdirdə sadalanan satınalmalar həyata keçiriləcək.

Beləliklə, “Naxçıvan Aqroservis” ASC-nin fəaliyyəti kənd təsərrüfatına göstərilən dövlət qayğısının konkret nəticəsi kimi dəyərləndirilə bilər. Müasir texnika və avadanlıqların alınması, onların fermerlərə güzəştli lizinq şərtləri ilə təqdim edilməsi aqrar sahədə məhsuldarlığın artmasına, iş proseslərinin sürətlənməsinə və kənd əməkçilərinin əməyinin yüngülləşdirilməsinə xidmət edir. Qarşıdakı illər üçün planlaşdırılan yeni satınalmalar isə Naxçıvanda əkinçilik və bağçılığın daha da inkişaf etdiriləcəyindən xəbər verir. Bütün bunlar göstərir ki, kənd təsərrüfatı yalnız mövsümi fəaliyyət sahəsi deyil, uzunmüddətli strateji inkişaf istiqaməti kimi diqqət mərkəzində saxlanılır. Həyata keçirilən bu tədbirlər və qarşıya qoyulan hədəflər aqrar sahənin dayanıqlı inkişafına, fermerlərin maddi-texniki təminatının gücləndirilməsinə və regionun ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə mühüm töhfə verəcək.

**Rafiq TƏHMƏZ**



# Əgər insan əzmli olarsa, qarşısına qoyduğu məqsədə çatar




Son zamanlar ölkə miqyasında muxtar respublika idmançılarının qazandığı uğurlar bu sahəyə diqqəti bir qədər də artırıb. Xüsusilə gənclərin individual idman növlərində əzmkarlığı onların uğurları ilə nəticələnir. Belə gənclərdən biri də boksçumuz Elbrus Kərimlidir. 2007-ci ildə Naxçıvan şəhərində anadan olan gənc boksçu hazırda İdman Akademiyasında Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq ixtisası üzrə II kurs tələbəsidir və təhsilini peşəkar idman fəaliyyəti ilə paralel şəkildə davam etdirir.

Elbrus Kərimlinin boksa marağı 11 yaşında yaranıb. Atasının boks müəllimi olması onun bu sahəyə erkən yaşlardan yönlənməsinə səbəb olub. Həmin dövrdən mütəmadi olaraq məşqlərinə davam edən gənc dəri əlcək sahibi 2018-ci ildən başlayaraq peşəkar şəkildə bu sahə ilə məşğul olmağa başlayıb və elə ilk böyük uğurunu da Naxçıvan birincisi olmaqla əldə edib. 2022-ci ili isə onun karyerasının mühüm hissəsi hesab etmək olar. Həmin gənc idmançımız yeniyetmələr arasında Azərbaycan çempionu adını qazanıb. Eyni zamanda beynəlxalq turnirin qalibi və Avropa birinciliyinin bürünc mükafatçısı olub. Qitə birinciliyindəki döyüşlərini xatırlayan Elbrus Kərimli deyir ki, heç vaxt unutmayacağı döyüş ilk görüşdə qarşılaşdığı italiyalı rəqibi olub: "Döyüşün mənim üçün çox həyəcanlı keçməsinə baxmayaraq, o, rinqdən qalib kimi ayrıldım. Bu mənim Avropa birinciliklərində ilk qarşılaşmam idi və buna görə bir qədər özümü həyəcanlı hiss edirdim. İkinci döyüşdə rəqibim şotlandiyalı boksçu idi və çətin də olsa, rəqibə tam üstünlüklə qalib gəldim, ukraynalı rəqibimə isə məğlub olaraq Avropa birinciliyində 3-cü yeri tutdum".

2024-cü ildə gənclər arasında keçirilən daha bir mötəbər yarışda ikinci olan Elbrus həmin il ərzində bir neçə beynəlxalq turnirin də qalibi olub. Bu nəticələr onun gələcək üçün böyük potensiala malik olduğunu göstərir.

Uzun illərdir, boksla məşğul olan 18 yaşlı dəri əlcək sahibinin fikrincə, idmanda nizam-intizam hər şeyin əsasını təşkil edir. Onun sözlərinə görə, bu idman növündə uğur qazanmaq üçün təkcə fiziki güc kifayət etmir. İlk növbədə, nizam-intizamlı olmaq, məşqlərə məsuliyyətlə yanaşmaq vacibdir. Çünki bu insanın həm idmanda, həm də gündəlik həyatda özünü düzgün formalaşdırmasına kömək edir. Gənc boksçu, həmçinin idmanda uğur qazanmaq üçün dözümlülüyün və səbrin də böyük rol oynadığını vurğulayır: "Çətin məşqlər, ağır döyüşlər və bəzən yaşanan məğlubiyyətlər idmançını sınasa da, bu mərhələlərdən keçmək gələcək uğurların əsasını qoyur. Əzmkar olmaq, qarşına qoyduğun məqsədə çatmaq hər bir idmançının əsas xüsusiyyətlərindən biri olmalıdır".

Gənc boksçu idmanda valideynlərin və məşqçilərin dəstəyinin vacibliyinə də toxunaraq qeyd edir ki, valideyn dəstəyi və inam idmançının özünə olan güvənini artırır. Əgər bir insan nizam-intizamlı, dözümlü və əzmkar olarsa, qarşısına qoyduğu istənilən məqsədə bir gün çatacaq.




## "Şərq qapısı"nın videosu səfirliyin rəsmi sosial hesabında paylaşılıb

Azərbaycan Respublikasının Türkiyə Respublikasındakı Səfirliyi "Şərq qapısı" qəzetinin Möminə xatun türbəsi ilə bağlı hazırladığı qısa videonu X (Twitter) sosial şəbəkə hesabında paylaşıb.

Paylaşımda qeyd olunur ki, XII əsrə aid Möminə xatun türbəsi Naxçıvanda Azərbaycan memarlığının seçkin şah əsərləri sırasında yer alır.

Qeyd edək ki, sözügedən video sosial şəbəkələrdə ən çox paylaşılan materiallar sırasındadır.

## Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi Orta İxtisas Polis Məktəbinə əyani təhsil üzrə kursant qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə Azərbaycan dilini sərbəst bilən, tam orta təhsilli, boyu azı 175 sm, yaşı 28-dən çox, 20-dən az olmayan və müddətli həqiqi hərbi xidmət keçmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilər.

Sənədlərin qəbulu 2025-ci il dekabr ayının 22-dən 2026-cı ilin mart ayının 1-dək bazar günləri istisna olmaqla hər gün saat $10^{00}$-dan $17^{00}$-dək Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Kadrlar şöbəsində həyata keçiriləcəkdir.

Namizədlər aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

*– şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*– tam orta təhsil haqqında sənəd (attestatın əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*– yaşayış yeri üzrə tibb müəssisəsindən Daxili İşlər Nazirliyinə təqdim olunması üçün sağlamlıq haqqında arayış;*

*– hərbi bilet (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*– əmək kitabçası (olanlar üçün);*

*– arayış (ailə tərkibi və yaşayış yeri haqqında, işləyənlər üçün isə əlavə olaraq iş yerlərindən);*

*– xasiyyətnamə (yaşayış və ya iş yerindən);*

*– nikah haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti);*

*– 9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil.*




Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçən namizədlərin siyahısı ixtisas seçimində iştirak etmək üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə göndərilir. İmtahanlar Azərbaycan dilində keçirilir.

Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbində tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 2 ildir. Təhsil müddəti ərzində kursantlar dövlət hesabına yataqxana, xüsusi geyim forması, təqaüd və yeməklə təmin olunur.

Məzunlara Hüquq-mühafizə fəaliyyəti ixtisası və "polis kiçik leytenantı" xüsusi rütbəsi verilir.

Qəbul qaydaları haqqında daha ətraflı məlumat əldə etmək üçün 077-359-84-71 və 060-600-11-00 nömrələrinə zəng edə, Naxçıvan MR Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdəki rəsmi səhifələrinə müraciət edə bilərsiniz.

# Naxçıvanda Amnistiya aktının icrası uğurla həyata keçirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 19 dekabr 2025-ci il tarixdə "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin Qərarının icrası Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsində 60 nəfər məhkum azadlığa buraxılıb ki, bunlardan 2 nəfəri böyük ictimai təhlükə törətməyən, 1 nəfəri ağır, 57 nəfəri isə az ağır cinayət törədənlərdir.

Həmçinin 72 nəfər məhkumun cəzası 6 ay azaldılıb. Cəzası 6 ay azaldılan 1 nəfər az ağır, 4 nəfər isə ağır (ehtiyatsızlıqdan) cinayət törədənlərdir.

Amnistiya aktının icrasının davamı olaraq Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin yerli icra və probasiya qurumları tərəfindən isə 118 nəfər məhkum barəsində amnistiya tətbiqetmə barədə qərar qəbul edilməklə cəzadan azad edilib. Eyni zamanda 33 nəfər məhkumun barəsində amnistiya tətbiq edilməsi ilə bağlı müvafiq məhkəmələrə təqdimatlar verilib və həmin təqdimatlar təmin olunub.

### İtmişdir

Rəsulov İbrahim Əsəd oğlunun adına verilmiş 09.02.2007-ci il tarixli 000550 nömrəli, 103013001324 reyestr nömrəli plan-ölçü itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, Qoşadizə məhəlləsində Rəsulov Qurban Əsəd oğlunun adına olan JN-143$^{A}$ nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək şəhəri, Qoşadizə məhəlləsində Rəsulov İbrahim Əsəd oğlunun adına olan JN-144 nömrəli torpağın mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Sədərək rayonu, Sədərək kənd sakini Dostalıyev İslam Əsəd oğlunun adına verilmiş JN-2711$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonu, Şıxmahmud kəndində Teymurova Əntiqə Teymur qızına məxsus olan 24.07.2025-ci il tarixli A-046259 nömrəli 0,668 ha torpaq sahəsinin plan-ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Dərvişlər kənd sakini Həsənov Əli Muxtar oğlunun adına olan JN-166$^{A}$ nömrəli dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Daylaqlı kəndində Qafarov Hidayət Məmməd oğlunun adına verilmiş JN-056$^{A}$, JN-56$^{B}$ və JN-056$^{C}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

***

Şərur rayon sakini Qasımova Aysun Nəsrəddin qızının adına olan AD-0053979 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Sərxanlı kənd sakini Nəcəfov Nadir Məhəmməd oğluna məxsus JN-15$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonu, Çərçiboğan kənd sakini Süleymanov Vəliyəddin Elman oğluna məxsus JN-666$^{A}$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ QAPISI
Baş redaktor: SARA ƏZİMOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Vöen: 0200065441

Çapa imzalanmışdır 00:00
Tiraj: 550. Sifariş № 4

Nömrəyə məsul: Ramiyə Əkbərova, Turan Məmmədli, Rafiq Təhməzov
Dizayner: Həbibə Allahverdiyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.